14 iyul 2021 №52 (1829) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanın Qələbəsi beynəlxalq hüququn təntənəsidir

### "Yüz minlərlə məcburi köçkünün doğma yurdlarına təhlükəsiz qayıdışı əsas prioritetimizdir"

Azərbaycan 30 illik münaqişəyə son qoydu, hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu. Azərbaycanın şanlı Qələbəsi beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir.

Prezident İlham Əliyev bu sözləri iyulun 13-də Qoşulmama Hərəkatı xarici işlər nazirlərinin onlayn formatda aralıq konfransında çıxışı zamanı deyib.

Bu il BMT Baş Assambleyasından sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyinin tamam olduğunu bildirən dövlət başçısı qeyd edib ki, Qoşulmama Hərəkatının bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörməti, ölkələrin daxili işlərinə qarışmamağı təşviq edən "Bandunq prinsipləri" Azərbaycanın xarici siyasətinin prioritetləri ilə tam uyğundur. Bu səbəbdən 10 il əvvəl Azərbaycan Qoşulmama Hərəkatı ailəsinin üzvü oldu. Qısa müddət ərzində ölkəmiz bu təşkilatda böyük nüfuz və etimad qazandı və 2016-cı ildə üzv dövlətlərin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədrlik Azərbaycana həvalə edildi.

Prezident vurğulayıb ki, Azərbaycan özünün sədrliyi dövrü üçün müfəssəl və ambisiyalı fəaliyyət planı qəbul etmişdi: "Təəssüf ki, COVİD-19 pandemiyası dünyanı bürüdü, yeni reallıqlar və çətinliklər yaratdı. Lakin biz yeni vəziyyətə çevik və adekvat reaksiya verə bildik. Biz səylərimizi pandemiyanın yaratdığı misilsiz çətinliklərə qarşı Hərəkatın beynəlxalq səviyyədə səmərəli və birgə cavabının formalaşdırılması üzərində cəmləşdirdik".

Hərəkatın sədri qismində Azərbaycanın pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış etdiyini deyən İlham Əliyev 2020-ci il mayın 4-də ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Təmas Qrupu ölkələrinin onlayn Zirvə görüşünün, 2020-ci il dekabrın 3-4-də BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş Xüsusi sessiyasının keçirildiyini diqqətə çatdırıb.



Dövlət başçısı onu da bildirib ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı edib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfəsi edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub.

Prezident daha sonra deyib: "2020-ci il Azərbaycan üçün əlamətdar il olub, çünki Hərəkatın gündəliyində dayanan vacib mövzulardan biri uğurla həll edilib. Bildiyiniz kimi, 30 ilə yaxın idi ki, Ermənistan ərazimizin təqribən 20 faizini işğal altında saxlayırdı. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə aparıb. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan 1992-ci ilin fevralında Xocalı soyqırımını törədib, 106-sı qadın, 63-ü uşaq olmaqla, yüzlərlə dinc insanı qətlə yetirib. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb.

davamı səh. 2-də

## Prezident Rusiya Baş nazirinin müavinini qəbul edib

### Üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

Aleksey Overçuk Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev Rusiyanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli İşçi qrupunun fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilib.

Görüşdə Azərbaycan-Rusiya ikitərəfli əlaqələrinə toxunulub, sərhəd-keçid məntəqələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə olunub, ticarət, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Mədəni irsin və tarixi abidələrin bərpası ilə bağlı əməkdaşlıq

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) başqanı Serkan Kayaların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı mədəni irsin mühafizəsi, tarixi-mədəni abidələrin bərpa və konservasiyası sahəsində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

səh. 3

## Diplomatların peşə bayramında Qarabağda

Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü – iyulun 9-da ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri üçün Qarabağa səfər proqramı təşkil edilib.

Əlamətdar gündə dövlət başçısının tapşırığına əsasən təşkil edilən səfərin iştirakçıları Füzuli rayonunda və Şuşa şəhərində olublar. Xarici diplomatik korpusun nümayəndələrini səfərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov müşayiət ediblər.

səh. 4

## Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilər

### Təkrar səsvermə keçiriləcək

İyulun 13-də Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilər təşkil edilib. Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın fəaliyyətinin təmin edilməsi ilə əlaqədar yaradılmış Seçki Komissiyası tərəfindən Beynəlxalq Muğam Mərkəzində təşkil olunan seçkilərin gedişini media mənsubları da izləyib.

Seçkilər "İctimai iştirakçılıq haqqında" 2013-cü il 22 noyabr tarixli Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq keçirilib.

Qeyd edək ki, İctimai Şuranın 9 nəfərdən ibarət tərkibdə seçilməsi nəzərdə tutulub. Ümumilikdə 49 qeyri-hökumət təşkilatının rəhbər və ya təmsilçisi İctimai Şura üzvlüyünə namizəd göstərilmişdi. Seçici qismində 250-dən çox ictimai təşkilat nümayəndəsi qeydiyyatdan keçmişdi.

Səsvermədən əvvəl çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirib ki, nazirlik yanında ilk dəfə yaranacaq şuranın fəaliyyəti mədəniyyət sisteminə nəzarəti gücləndirəcək, eyni zamanda nazirlik və onun tabeliyində olan qurumlarla qeyri-hökumət təşkilatları arasında səmərəli əməkdaşlığın qurulmasına yardımçı olacaq.

Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə qeyd edib ki, mədəniyyət ümumilikdə ölkənin bütün insanlarını maraqlandıran sahədir. O, ümidvar olduğunu bildirib ki, İctimai Şuraya seçiləcək üzvlər nazirliyin ictimai təşkilatlarla



münasibətlərinin səmərəli qurulmasına öz töhfəsini verəcək və bu sahədə həm şəffaflığın təmin edilməsi, həm də keyfiyyətin artmasına yardımçı olacaqlar.

Sonra İctimai Şuraya seçki prosesi başlayıb. Səsvermə nəticəsində, qanunvericiliyə müvafiq olaraq tələb olunan səs çoxluğunu toplamış 1 namizəd – Əlibəyov Gəray Ayaz oğlu ("Mədəni İnkişaf Mərkəzi" İctimai Birliyi) İctimai Şuranın üzvü seçilib.

Qalan 8 yerə 16 iyul 2021-ci il tarixdə saat 10:00-dan 14:00-dək Beynəlxalq Muğam Mərkəzində namizədliyi qeydə alınmış şəxslər (48 nəfər) arasında təkrar seçkilər keçiriləcək.

Təkrar seçkidə qeydiyyata alınmış vətəndaş cəmiyyəti institutları təmsilçilərinin seçici qismində iştirakı nəzərdə tutulub.



## Ermənistanın tarixi və mədəni irsimizi mənimsəməsi

### Hesabat hazırlanıb

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi "Ermənistanın Azərbaycanın tarixi və mədəni irsini mənimsəməsi" adlı hesabat hazırlayıb.

Hesabatda həm işğaldan azad olunmuş Azərbaycan ərazilərində, həm də Ermənistan ərazisində Azərbaycana məxsus tarixi və mədəni irsin Ermənistan tərəfindən mənimsənilməsi siyasətinin müxtəlif tərəfləri araşdırılır.

səh. 2

## General Polad Həşimov haqqında sənədli film təqdim olundu

İyulun 12-də Beynəlxalq Muğam Mərkəzində şəhid general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun (1975-2020) xatirəsinə həsr olunan "Portret 3293" sənədli filmi və generalın portretinin təqdimat mərasimi keçirildi.

Mərasimdə Milli Məclisin deputatları, Mədəniyyət Nazirliyinin nümayəndələri, mədəniyyət və elm xadimləri, Polad Həşimovun ailə üzvləri və hərbçi dostları iştirak edirdi.

Layihənin rəhbəri və ideya müəllifi Nurana Babayeva film haqqında məlumat verdi. Bildirdi ki, ötən ilin iyulunda xain düşmən tərəfindən Tovuz hadisələrinin törədilməsi və general-mayor Polad Həşimovun şəhid olmasından çox sarsılıb: "2020-ci ilin iyul ayından emalatxanamda generalın portretini işləməyə başladım. Şəhid generalın portreti mənim bu janrda ilk işimdir. Eyni zamanda bu sənədli filmi ərsəyə gətirməyə nail olduq".

Filmin adı ilə bağlı fikirlərini bölüşən N.Babayeva söylədi ki, 3293 rəqəmi Polad Həşimovun




düşməndən aldığı postun adıdır və hadisələrin baş verdiyi yeri əks etdirir: "Zabit və əsgər heyəti həmin postu həm də "Polad postu" adlandırıb. Filmi hazırlamaqda əsas məqsədim onu tanıyanların sevgi və hörmət bəslədiyi Polad Həşimovun xatirəsini yaşatmaqdır".

davamı səh. 2-də

## Nağıl kimi həyat...

Uşaqlar, elə böyüklər üçün də sehrli adam təəssüratı yaradan Əməkdar artist, sevilən aktyor, peşəkar kuklaçı Ələkbər Hüseynov ilə səhnədən son görüşümdən keçən bu 15 il ərzində bir həqiqət heç vaxt dəyişmədi. O, səhnə möcüzəsi idi...

İstedadlı aktyor və rejissor uşaqları təmənnasız sevməyi bacaran böyük ürək sahibi idi. Bütün uşaqları ətirli çiçək olduqlarına inandıran (illərlə "Hər birimiz bir çiçək" verilişinin aparıcısı olub), onların sonsuz sevgisində ağrı-acılarını unudan bənzərsiz teatr, səhnə adamı yaşasaydı, bu günlərdə 60 illik yubileyini qeyd edəcəkdi.

səh. 6

### Ölkəmiz VI Dünya Folkloriadasında təmsil olunub



səh. 8

### Biləsuvar rayonunun Əliabad kəndində Milli Qəhrəman Mübariz İbrahimovun Ev-Muzeyinin açılışı keçirilib

səh. 3



### Yunus Əmrəyə həsr olunmuş beynəlxalq simpozium

səh. 8

# Azərbaycanın Qələbəsi beynəlxalq hüququn təntənəsidir

əvvəli səh. 1-də

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ATƏT daxil olmaqla, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar da buna bənzər qərar və qətnamələr qəbul edib. Lakin Ermənistan aparıcı beynəlxalq təşkilatların tələblərinə məhəl qoymayıb. Beləliklə, Ermənistanın yeganə məqsədi status-kvonun saxlanılmasından və işğalın möhkəmləndirilməsindən ibarət olub.

Son illər ərzində Ermənistan danışıqlar prosesini məqsədli şəkildə məhv edir, Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi. 2020-ci ildə Ermənistan dövlət sərhədi və keçmiş təmas xətti boyu üç dəfə hərbi təxribatlara əl atdı və nəticədə hərbçilərimiz və mülki vətəndaşlarımız həlak oldular.

Ötən ilin sentyabrında Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi hücuma keçdi. Bu təcavüzə cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı və işğal altındakı ərazilərin böyük hissəsini azad etdi.

Qırx dörd günlük müharibə nəticəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza ataraq, Azərbaycanın işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin etdi".

"Biz Qoşulmama Hərəkatı ölkələrinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə müntəzəm dəstəyini yüksək qiymətləndiririk" deyən dövlət başçısı onu da xatırladıb ki, 2020-ci ilin iyulunda Qoşulmama Hərəkatı Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi hərbi təxribatla bağlı kommünike qəbul edib. Bundan əlavə, Vətən müharibəsi zamanı – 2020-ci ilin oktyabrında nazirlər səviyyəsində keçirilən onlayn iclas çərçivəsində xüsusi bəyanat qəbul olunub. Bu sənədlərdə Qoşulmama Hərəkatı ölkələri Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib və ərazi bütövlüyünün bərpasına yönəlmiş səylərinə dair Azərbaycanla həmrəyliyini ifadə edib.

"Bu məqamda mən Vətən müharibəsi zamanı baş vermiş konkret bir hadisəni vurğulamaq istərdim. BMT Təhlükəsizlik Şurasının bəzi üzvləri 1993-cü ildə qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının qətnamələrini nəzərə almadan, qərəzli bəyanat qəbul etdirmək cəhdləri göstərdilər. Lakin Təhlükəsizlik Şurasındakı müzakirələr zamanı Azərbaycanın mövqeyini dəstəkləyən Qoşulmama Hərəkatının yeddi üzvü təkid etdi ki, müzakirə edilən mətnə Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinə istinad əlavə edilsin.

Qoşulmama Hərəkatı ölkələrinin belə qətiyyətli mövqeyi onların "Bandunq prinsipləri"nə və Hərəkatın dəyərlərinə sadiqliyini nümayiş etdirdi. Biz onların bu mövqeyini ikitərəfli münasibətlərimizdə tarixi dostluq jesti kimi qəbul etdik", – deyə İlham Əliyev vurğulayıb.

Prezident qeyd edib ki, işğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb: "Hətta qəbiristanlıqlar yerlə yeksan edilib. Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub".

Xarici diplomatların və jurnalistlərin azad olunmuş ərazilərə müntəzəm səfərlərinin təşkil edildiyini deyən dövlət başçısı bildirib ki, beynəlxalq media Azərbaycan xalqına məxsus məscid və dini irsin məqsədli şəkildə dağıdılması və təhqir olunması, şəhər və kəndlərin darmadağın edilməsi faktlarını sənədləşdirib və onları işıqlandırıb.

Azərbaycan Prezidenti həmkarlarına ölkəmizin şəhər və kəndlərinin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyini də deyib. Bildirib ki, kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv edilməsi öz əksini tapıb.

Azad olunmuş ərazilərdə yenidənqurma işlərinin başlandığını deyən dövlət başçısı bildirib ki, Azərbaycanın növbəti onillik üçün sosial-iqtisadi inkişafına dair müəyyən olunan beş milli prioritetdən biri yüz minlərlə məcburi köçkünün doğma yurdlarına ləyaqətli və təhlükəsiz qayıdışıdır.

"Lakin əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır" deyən Prezident İlham Əliyev qeyd edib ki, müharibədən sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100 nəfərdən çox insan yaralanıb. Minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Prezident vurğulayıb ki, belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Ermənistan mina xəritələrini verməkdən boyun qaçırır. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana versin.

# Ermənistanın tarixi və mədəni irsimizi mənimsəməsi haqqında hesabat

*Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi "Ermənistanın Azərbaycanın tarixi və mədəni irsini mənimsəməsi" adlı hesabat hazırlayıb.*

Mərkəzdən verilən məlumata görə, hesabatda həm işğaldan azad olunmuş Azərbaycan ərazilərində, həm də Ermənistan ərazisində Azərbaycana məxsus tarixi və mədəni irsin Ermənistan tərəfindən mənimsənilməsi siyasətinin müxtəlif tərəfləri araşdırılır.

İki hissədən ibarət olan hesabatın birinci hissəsində Qarabağın mədəni və tarixi irsinin, o cümlədən muzey və mədəniyyət abidələrinin talan edilməsi, həmçinin ərazidə qanunsuz arxeoloji qazıntıların aparılması araşdırılır. Materialın ikinci hissəsində abidələrin "erməniləşdirilməsi" və azərbaycanlılara məxsus irsin saxtalaşdırılması təhlil edilir. Hesabatın bir qismi Mədəniyyət Nazirliyi tərəfindən təqdim olunan mənbələrə əsasən hazırlanıb.

Hesabatda Almaniyanın Bochum Universitetinin professoru Hans-Yoachim Heintze tərəfindən yazılmış "Silahlı qarşıdurmalar zamanı mədəni irsin qorunması" adlı materialda təsbit olunmuş hüquqi qiymətləndirmədən də istifadə edilib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ("AİR Center" – Center of Analysis of International Relations) Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2019-cu il tarixli fərmanı ilə yaradılmış publik hüquqi şəxsdir.

# Düşmənə onun yerinin göstərildiyi gün...

## Tovuz döyüşlərindən bir il ötür

12-14 iyul tarixi Ermənistan-Azərbaycan sərhədində hərbi toqquşmanın – erməni silahlı qüvvələrinin törətdiyi təxribata Azərbaycan Ordusunun hissələri tərəfindən layiqli cavabın verildiyi Tovuz döyüşlərinin ildönümüdür.

2020-ci il iyulun 12-də günorta saatlarında Ermənistan tərəfi sərhəddə növbəti dəfə hərbi təxribat törədərək Tovuz rayonu istiqamətində Azərbaycan mövqelərini ələ keçirməyə cəhd göstərib. Düşmənin bu cəhdlərinin qarşısı hərbi qüvvələrimiz tərəfindən alınıb.

İyulun 12-də günün ikinci yarısı, eləcə də iyulun 13-də və 14-də sərhəddə gedən şiddətli döyüşlərdə hərbçilərimiz böyük rəşadət və qəhrəmanlıq göstərərək düşmənə mövqelərimizə doğru irəliləməyə imkan verməyiblər. Düşmənin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və yüzlərlə canlı qüvvəsi məhv edilib.

Döyüşlərdə Azərbaycan Ordusu da itkilər verib. Döyüş zamanı müdafiənin ön xəttində olan general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayorlar Namiq Əhmədov, Anar Novruzov qəhrəmancasına şəhid olublar. Həmçinin 12-14 iyul tarixində sərhəddə düşmənin hücumunun qarşısının alınması zamanı daha 8 hərbçimiz – baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq hərbi xidmət qulluqçuları – əsgər Elçin Mustafazadə, çavuş Vüqar Sadıqov, əsgər Nazim İsmayılov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirov qəhrəmancasına həlak olublar.

Ermənilərin atdığı mərminin Tovuz rayonunun Ağdam kəndində evlərdən birinə düşməsi nəticəsində 76 yaşlı Əziz Əliyev də şəhid olmuşdu. Rayonun bir neçə kəndində evlərə, inzibati binalara, mülki obyektlərə ciddi ziyan dəymişdi.

Bununla belə, igid Vətən oğulları sərhədimizi canları bahasına qoruyaraq düşmənin istəyini qursağında qoydular.

"Düşmənə ağır zərbə vurulub, həlak olan hərbçilərimizin qisası alınıb və bundan sonra da alınacaq. Şəhidlərimizin qanı yerdə qalmayacaq" – bu fikri 2020-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı bəyan etmişdi.

Ali Baş Komandan vurğulamışdı ki, sərhəddə davam edən vəziyyətin bütün məsuliyyətini Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır: "Çünki məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq... Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin... Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik".

Həqiqətən də, 2020-ci ilin iyulundakı Tovuz döyüşlərində Azərbaycan Ordusu düşmənə yerini göstərdi. Tovuz döyüşləri faktiki olaraq 2020-ci ilin şanlı Vətən müharibəsinin müqəddiməsi idi. Bu döyüşlərdən nəticə çıxarmayan işğalçı dövlətin rəhbərliyi sentyabrın 27-də cəbhə xəttində – bu dəfə Qarabağda hərbi təxribat törətdi və bundan sonra Azərbaycanın "Dəmir yumruğu"nu gördü. 44 günlük müharibədə rəşadətli Silahlı Qüvvələrimiz işğalçıya tarix boyu unutmayacağı dərs verdi...

***



İyulun 12-də Müdafiə Nazirliyinin rəhbərliyi Tovuz döyüşlərinin ildönümü münasibətilə İkinci Şəhidlər xiyabanını ziyarət edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb və ruhlarına dualar oxunub. 2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını alarkən canlarını fəda etmiş şəhidlərimizin, eləcə də burada uyuyan bütün şəhidlərin məzarları ziyarət edilərək üzərilərinə gül dəstələri düzülüb.

Nazirlik tərəfindən Tovuz döyüşlərinin ildönümünə həsr olunan silsilə tədbirlər təşkil edilib.

# General Polad Həşimov haqqında sənədli film təqdim olundu

əvvəli səh. 1-də

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qeyd etdi ki, Tovuz döyüşləri bizi Zəfərə aparan bir hadisə oldu: "O insana yaxşı övlad, həyat yoldaşı deyirlər ki, valideynlərinə, ailəsinə qayğı ilə yanaşır. Ancaq elə sevgi var ki, heç düşünmədən sevdiklərimizi arxamızda qoyaraq yolunda canımızı fəda edirik. Bu uca sevginin adı ana Vətəndir! Polad Həşimov belə oğullardan idi. O, sadəcə, Səmayə xanımın deyil, bütün analarımızın övladıdır. Onun ən böyük arzusu ailəsi ilə deyil, Vətənlə bağlı idi. Polad Həşimovun tabeliyində çoxlu sayda əsgərləri var idi. Məhz onlar Polad Həşimovun adı çəkiləndə "mənim komandirim" deyirdilər. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında Ordumuz 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdi. Bununla həm generalımızın qisası alındı, həm də 30 ilə yaxın həsrətini çəkdiyimiz doğma Qarabağımıza qovuşduq. Mən bir daha Polad Həşimova və torpaqlarımızın azadlığı uğrunda canını fəda edən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm".



Millət vəkili Ceyhun Məmmədov bildirdi ki, bu gün Ali Baş Komandan İlham Əliyevin və qüdrətli Ordumuzun sayəsində Azərbaycan xalqı tarixinin ən şanlı günlərindən birini yaşayır: "Bu Zəfər dolu günləri bizə yaşatmaqdan ötrü minlərlə qəhrəmanımız Vətən yolunda öz canını fəda etdi. Şəhidlik insanın həyatda çata biləcəyi ən uca məqamdır. Şəhid valideyni adını daşımaq isə böyük fəxr və qürurdur. Həyatda ən çətin işlərdən biri kimlərəsə nümunə olmağı bacarmaqdır. Polad Həşimov öz əsgərlərinə nümunə idi. Mən Səmayə xanım başda olmaqla bütün şəhid analarının qarşısında baş əyirəm".

Çıxışlardan sonra "Portret 3293" sənədli filmi nümayiş etdirildi.

Sonda şəhid generalın anası Səmayə Həşimova çıxış edərək oğlunun xatirəsinə göstərilən diqqətə görə ölkə başçısı İlham Əliyevə və tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Qeyd edək ki, "Chelebi Media Group" tərəfindən lentə alınan filmin prodüseri Məlahət Qurbanovadır. Sənədli filmin çəkilişləri Azərbaycan Hərb Tarixi Muzeyi, II Fəxri xiyaban, Polad Həşimovun Sumqayıt şəhərindəki evi və Heydər Əliyev adına Ali Hərbi Məktəbdə aparılıb.

Xatırladaq ki, general-mayor Polad Həşimov 14 iyul 2020-ci ildə Tovuz rayonu istiqamətində baş verən şiddətli döyüşlər zamanı düşmənin hücum cəhdinin qarşısının alınarkən şəhadətə yetib. Tovuz döyüşlərində 12 hərbçimiz həlak olub. Ölkə başçısının 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə general-mayor Polad Həşimov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

**Nurəddin MƏMMƏDLİ**

# Bakı və Tbilisi qardaş oldu...



Gürcüstan paytaxtının meri Kaxa Kaladzenin rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 13-də Bakıya gəlib.

Səfərin ilk günündə qonaqlar İçərişəhərlə tanış olub, Fəvvarələr meydanını gəziblər.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov tərəfindən qarşılanan qonaqlar Bakı Xan Sarayı Kompleksi və Yeraltı hamamla tanış olublar. Onlara ərazidə aparılan konservasiya və bərpa işləri haqqında məlumat verilib.

Tbilisi merinin rəhbərlik etdiyi heyət "İçərişəhər" Ənənəvi İncəsənət Mərkəzində də olub. Həmçinin ekskursiya zamanı qonaqlara Qız qalası, Qala divarları kimi abidələrin tarixi və memarlıq xüsusiyyətləri barədə də məlumat verilib.

Həmin gün Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Tbilisi şəhərinin meri Kaxa Kaladzenin rəhbərlik etdiyi nümayəndə heyətinin görüşü keçirilib.

Eldar Əzizov ölkələrimiz arasında qədim dostluq və qonşuluq münasibətlərinin olduğunu qeyd edərək Azərbaycan-Gürcüstan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb. Bildirib ki, iki ölkə arasında münasibətlər bir çox sahələrdə inkişaf edir. Qarşılıqlı səfərlər bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açır.

Azərbaycan və gürcü xalqlarının uzun əsrlərdən bəri sülh və dostluq şəraitində yaşadıqlarını söyləyən Tbilisi meri Kaxa Kaladze bildirib ki, ölkəsində Azərbaycan ilə münasibətlərə xüsusi önəm verilir. O, ümidvar olduğunu bildirib ki, bu səfər Bakı və Tbilisi arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfə olacaq.

Sonra Bakı və Tbilisi şəhərləri arasında qardaşlaşma haqqında memorandum imzalanıb və qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Bakı Tbilisinin qardaşlıq münasibətləri qurduğu 21-ci şəhərdir.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze iştirak ediblər.

# Milli İncəsənət Muzeyində uşaqlar üçün ustad dərsləri

*Azərbaycan Milli İncəsənət Muzeyi yenidən həftə sonları uşaqlar üçün ustad dərsləri keçirəcək.*




Muzeydən bildirilib ki, dərslər "Bədii lövhələr" və "Milli motivlər" adlı iki fərqli proqram üzrə reallaşacaq.

İlk dəfə "Bədii lövhələr" adlı ustad dərsinin iştirakçıları görkəmli rəssam Tahir Salahovun muzeyin fondunda saxlanılan "Çiçəkləyən nar" tablosu ilə yaxından tanış olacaq və əsərin "step by step" (addım-addım) imitasiyasını yaratmaq fürsəti qazanacaqlar. Uşaqlar "Milli motivlər" adlı ustad dərsində iştirak edərək maddi mədəni irsimizə yaxından bələd olacaqlar.

Maarifləndirici və əyləncəli proqramlar uşaqların dünyagörüşü, zövqü və sənət duyumunu formalaşdırmaq məqsədi daşıyır.

# Mədəni irsin və tarixi abidələrin bərpası ilə bağlı əməkdaşlıq davam edəcək

## Mədəniyyət Nazirliyində TİKA-nın nümayəndə heyəti ilə görüş

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyulun 9-da Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) başqanı Serkan Kayaların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə TİKA-nın Bakı proqram koordinatoru Teoman Tiryaki, agentliyin protokol müdiri Samet Kapısız, TİKA-nın Bakı proqram koordinasiya ofisinin assistenti Abbas Hümmətov, həmçinin Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli iştirak ediblər.



Nazir qonaqları səmimi salamlayaraq Azərbaycanla Türkiyə arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin mədəniyyət sahəsində əməkdaşlıqda da ön planda olduğunu vurğulayıb. Anar Kərimov ölkələrimizin mədəni əlaqələrinin gündən-günə inkişaf edərək genişlənməsindən məmnunluğunu ifadə edib.

Görüş zamanı mədəni irsin mühafizəsi, tarixi-mədəni abidələrini bərpa və konservasiyası sahəsində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Serkan Kayalar görüşə görə təşəkkür edərək mədəni irsin və tarixi abidələrin bərpası ilə bağlı TİKA-nın bundan sonra da ölkəmizlə birgə layihələrinin, eyni zamanda beynəlxalq əməkdaşlıq sahəsində işlərin davam etdiriləcəyinə əminliyini vurğulayıb.

Görüşdə həmçinin iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin gələcək inkişafı, o cümlədən mədəni irs sahəsində təcrübə mübadiləsi məsələləri müzakirə olunub.

# Gəncədə "Dumanlar başımda dastana döndü" adlı sərgi





Mədəniyyət Nazirliyi və Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilati dəstəyi ilə Gəncə şəhərindəki Məhsəti Gəncəvi Mərkəzində YARAT Müasir İncəsənət Məkanının "Dumanlar başımda dastana döndü" adlı qrup sərgisi açılıb. Sərgidə yerli rəssam və fotoqrafların əsərləri nümayiş olunur.

Sərgi Azərbaycanın Vətən müharibəsində tarixi Zəfərinə, ümumilikdə Qarabağ münaqişəsinə, eləcə də erməni silahlı qüvvələrinin müharibə cinayətlərinə həsr olunub.

YARAT-ın İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Hökümə Kərimova və kurator Zəhra Məmmədova sərgi haqqında məlumat veriblər.

Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov sərginin əhəmiyyətini yüksək qiymətləndirib. O, 44 günlük Vətən müharibəsi zamanı cəbhə bölgəsindən uzaq olan qədim Gəncənin Ermənistanın raket hücumlarından əziyyət çəkdiyini, çoxsaylı insan tələfatı olduğunu və infrastruktura ciddi ziyan dəydiyini qeyd edib: "Çox şükürlər olsun ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz işğal altında olan ata-baba yurdlarımızı düşməndən xilas edərək xalqımıza şanlı Qələbə qazandırdı".

Açılış mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçisi Yadigar Bədəlov, şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov, AMEA Gəncə Bölməsinin əməkdaşı Elnur Həsənov və "Gənclər evi"nin direktoru Amil Qurbanov da çıxış edib.

Qeyd edək ki, sərginin adı Vətən müharibəsində şəhid olmuş gizir Xudayar Yusifzadənin özünəməxsus ifasında səslənən, görkəmli xanəndə, Xalq artisti Əlibaba Məmmədovun Əliağa Vahidin sözlərinə yazdığı "Vətən yaxşıdır" (hazırda "Xudayar təsnifi" adlanır) təsnifindən götürülüb. Bu mahnı həmçinin sərgidə nümayiş olunan Rəşad Ələkbərovun instalyasiyasının tərkib hissəsidir.

Sərgidə Ağababa Bağırov, Elnur Babayev, İlqar Cəfərov, Şahvələd Eyvazov, Erkin Ələkbərli, Rəşad Ələkbərov, Xalid Əsgərov, Mirnaib Həsənoğlu, Əli Qafarov, Cavid Qurbanov, Oleq Litvin, Əli Rza və Nurəhməd Vəliyev kimi rəssam və fotoqrafların instalyasiya, fotoqrafiya və rəqəmsal sənət əsərləri nümayiş olunur. Ekspozisiyaya YARAT-ın və Azərbaycan Fotoqraflar Birliyinin fondlarında saxlanılan əsərlər və fotomateriallar daxil edilib.

Sərgi sentyabrın 25-dək davam edəcək.

# Nizami Gəncəvi və Yunus Əmrə irsi: tarixilik və müasirlik

Kürdəmir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Nizami Gəncəvi və Yunus Əmrə irsi: tarixilik və müasirlik" mövzusunda dəyirmi masa keçirilib. AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran regional filialında təşkil olunan tədbirdə regional idarənin dəvəti ilə İstanbul Universitetinin müəllimləri də iştirak ediblər.

Qonaqlar muzeylə tanış olduqdan sonra İmişli rayon Mədəniyyət Mərkəzinin direktoru Sərvər Şirinov, xanəndə Baxış Babaşov və tarzən Fərrux Xəmmədovun ifasında Nizami Gəncəvinin yaradıcılığı əsasında ədəbi-musiqili proqram təqdim edilib.

Dəyirmi masaya moderatorluq edən regional idarənin rəisi Faiq Xudanlı qonaqları təqdim edib və müzakirə olunacaq mövzular haqqında məlumat verib.



Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı "Nizami Gəncəvi yaradıcılığının Azərbaycan mədəniyyətinə təsiri", İstanbul Universitetinin dosenti, türkologiya üzrə fəlsəfə doktoru Məhməd Samsakçı "Türk ədəbiyyatında Yunus Əmrə: dünən və bu gün", regional idarənin Xocavənd rayonu üzrə baş məsləhətçisi, yazıçı, ədəbiyyatşünas Ramil Əhmədov "Modern dünya ədəbiyyatında Nizami Gəncəvi təsiri" mövzularda çıxış ediblər.

Yazıçı Əlisəfa Azayev və İstanbul Universitetinin müəllimi, elmlər doktoru Kaan Kapan Nizami Gəncəvi və Yunus Əmrənin zəngin yaradıcılıqları haqqında fikirlərini bölüşüblər.

Sonda rayonun mədəni həyatında fəal iştirakına görə İmişli Mədəniyyət Mərkəzinin əməkdaşı, xanəndə Baxış Babaşov regional idarənin fəxri fərmanı ilə təltif olunub.

# Milli Qəhrəman Mübariz İbrahimovun Ev-Muzeyinin açılışı keçirilib

Biləsuvar rayonunun Əliabad kəndində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun Ev-Muzeyinin açılış mərasimi keçirilib. Tədbirdə Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Əlisultan Sadıxov, şəhid valideynləri, kənd sakinləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər Mübariz İbrahimovun qəhrəmanlığı haqqında danışaraq şəhid və qazilərimizin onu özlərinə bir örnək aldıqlarını qeyd ediblər. Bildirilib ki, Türk dünyasının qəhrəman oğlu Mübariz İbrahimov öz hünəri ilə adını Azərbaycan xalqının qəhrəmanlıq tarixinə əbədi olaraq yazdırıb.



Çıxışçılar Milli Qəhrəmanın adını daşıyan qardaşı oğlu, balaca Mübarizi 3 yaşının tamam olması münasibətilə də təbrik ediblər.

Milli Qəhrəmanın atası Ağakərim İbrahimov oğlunun xatirəsinə göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib, tədbir iştirakçılarına təşəkkür edib.

Sonra ev-muzeyin açılışını bildirən rəmzi qırmızı lent kəsilib, tədbir iştirakçıları muzeylə tanış olublar.

Muzeyin birmərtəbəli binası Prezident İlham Əliyevin 2018-ci il sentyabrın 18-də Biləsuvar rayonuna səfəri zamanı verdiyi tapşırıq əsasında tikilib. Burada Mübariz İbrahimovun şəxsi əşyaları, ömür yolunu əks etdirən eksponatlar yer alıb.

Qeyd edək ki, Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 2005-ci ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbini bitirib. Həmin il həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Daxili Qoşunların N saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçib. Hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Bir müddət müxtəlif mülki işlərdə çalışdıqdan sonra 2009-cu ilin avqustunda gizir rütbəsində hərbi xidmətə başlayıb.

Mübariz İbrahimov Vətən torpağının işğalı ilə heç cürə barışa bilmirdi. Yağıdan intiqam almaq hissi ilə yaşayırdı. Təkrar orduda xidmətə qayıtması da bununla bağlı idi.

2010-cu ildə iyunun 19-na keçən gecə Mübariz İbrahimov Tərtərin Çaylı kəndi istiqamətində təxminən bir kilometrlik minalanmış sahəni keçərək işğalçı Ermənistan ordusunun çox sayda hərbçisini birinci həmlədə məhv edib. Düşmənlə bir neçə saat təkbaşına döyüşüb. Səhər saatlarında qeyri-bərabər döyüşdə misilsiz qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlib.

Ölkə başçısının müvafiq sərəncamı ilə ölümündən sonra Mübariz İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bu gün Mübariz İbrahimovun ruhu şaddır. Çünki onun da qəhrəmanlığından ilham alan igid oğullarımız 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızı düşməndən azad edərək şanlı Qələbə qazandılar.

**NURƏDDİN**

# Kəndlərdə mədəniyyət günləri

Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə "Kəndlərdə mədəniyyət günləri" layihəsinə başlanılıb. Layihənin məqsədi kəndlərin adət-ənənələrinin, mətbəxinin yaşadılması, insanların asudə vaxtının səmərəli təşkil edilməsi, gənclərə vətənpərvərlik ruhunun aşılanmasından ibarətdir.



İlk tədbir Siyəzən rayonunun Balaca Həmyə kəndində gerçəkləşib. "Çiçəklənən yurdum mənim" adlı tədbirdə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov, idarənin əməkdaşları, mədəniyyət işçiləri və kənd sakinləri iştirak ediblər.

Çıxışlardan sonra vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib, Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından "Kərpickəsən kişinin dastanı" hekayəti əsasında səhnəcik nümayiş etdirilib. Tədbir gənc müğənnilərin ifasında "Yaşa, Azərbaycan!" mahnısı ilə başa çatıb.

"Kəndlərdə mədəniyyət günləri" layihəsi çərçivəsində daha bir tədbir Quba rayonunun Bağbanlı qəsəbəsində "Tarixi Zəfərimizin incəsənətdə tərənnümü" mövzusunda keçirilib.

**Bölgələrdən xəbərlər**

# Vətənin qəhrəmanları unudulmur

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsinin təşkilatçılığı ilə tanınmış yazıçı, publisist, "Gülüstan" ədəbi məclisinin sədri Şıxəmməd Seyidməmmədovun Vətən müharibəsi şəhidlərinə ithaf etdiyi "44 günlük tarixi möcüzə" adlı kitabın təqdimat mərasimi keçirilib. MKS-nin Qəçrəş kənd kitabxanasının əməkdaşları, fəal oxucular və kənd sakinləri tərəfindən I Qarabağ müharibəsi şəhidi İbrahim Şahmərdanovun məzarı ziyarət olunub.

Masallı Regional Mədəniyyət İdarəsi R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində Tovuz döyüşlərinin ildönümü ilə əlaqədar



"Unudulmaz tarix" adlı tədbir keçirilib. Masallı rayon Mərkəzi Kitabxanasının əməkdaşları Vətən müharibəsi qazisi Fikrət Yaqubzadə ilə görüşüblər. Qazi kitabxanaya abunə yazılıb və maraq dairəsinə uyğun kitabları alıb.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Abşeron rayon Mədəniyyət Mərkəzinin kollektivi Vətən müharibəsi şəhidi Cavanşir Əhmədovun ailəsinə baş çəkib. İdarənin Xızı rayon üzrə nümayəndəliyinin əməkdaşları və MKS-nin oxucuları şəhidlər Elnur Ağəhmədov, Əlabbas Ələkbərov, Elməddin Cəfərov, Ravil Novruzov, Vidadi Allahverdiyev, Xaspolad Qasımov və Rafiq Məcidovun məzarlarını ziyarət ediblər. Qubadlı Rayon Mədəniyyət İşçiləri Həmkarlar Komitəsinin təşəbbüsü ilə Vətən müharibəsi şəhidi Ramil Quliyevin ailəsi ilə görüş olub.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin Xətai və Yenigün kənd kitabxana filiallarının əməkdaşları Vətən müharibəsi şəhidi Rusif Quliyevin ailəsini ziyarət ediblər. MKS-nin Aşağı Göycəli kənd kitabxana filialının əməkdaşları Vətən müharibəsi qazisi Elməddin Gülməmmədovla görüşüblər. Tovuz rayon Mədəniyyət Mərkəzi və filiallarının əməkdaşları isə Tovuz döyüşləri şəhidi İlqar Zeynallının məzarını ziyarət ediblər.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Heydər Əliyev Mərkəzi Tovuz döyüşlərinin ildönümü münasibətilə videoçarx hazırlayıb.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon MKS-nin təşkilatçılığı ilə Vətən müharibəsi qaziləri Məhəmməd Şəfiyev, Kamal Məmmədov, Ceyhun Abdullayev, Maksim Voskresenski və Məhəmməd Orucovla görüş keçirilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Mingəçevir şəhər Azər Niftəliyev adı-



na Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Şahmar Məmmədovun doğum günü münasibətilə məzarını ziyarət ediblər.

# Müxtəlif səpkili tədbirlər



Sumqayıt Regional Mədəniyyət İdarəsi Sumqayıt Dövlət Rəsm Qalereyasının əməkdaşları və bir qrup rəssam paytaxtın Sabunçu rayonunun Balaxanı qəsəbəsində olub. Rəssamlar ötən il qədim qəsəbədə aparılan bərpa və quruculuq işləri ilə maraqlanıb, tarixi və memarlıq nümunələrini yağlı boya ilə kətan üzərinə köçürüblər.

Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova, Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin direktoru Şəmsiyyət Əsgərova və Uşaq incəsənət məktəbinin direktoru Eldar Rəcəbov mədəni irsin qorunmasında xidmətlərinə görə şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov tərəfindən fəxri fərmanla təltif olunublar. Fəxri fərmanlar Şəki Xan sarayı və şəhərin mərkəzi hissəsinin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsinin ildönümü münasibətilə keçirilmiş tədbirdə təqdim olunub. Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin müəllim və şagirdləri Balakən şəhərində yeni istifadəyə verilmiş Uşaq incəsənət məktəbində hesabat konserti ilə çıxış ediblər. Şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri – Melisa Məcidova, Əfsanə Lətifova, Nübar Əbdürrəhmanova, Günel Nəsibli və Aişə Fətəliyeva Bakı Musiqi Akademiyası məktəb-studiyasının 40 illik yubileyinə həsr olunmuş "Müxtəlif ölkələrin musiqi ədəbiyyatını öyrənirik" adlı müsabiqədə laureat və diplomant adını qazanıblar.

Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran şəhər Mərkəzi Kitabxanasında Aşıq Ələsgərin 200 illiyi münasibətilə tədbir keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Zərdabi qəsəbə kitabxanası Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş "Ələsgər yaradıcılığı" adlı tədbir keçirib.




Zaqatala rayon MKS-nin Kəpənəkçi kənd kitabxanasının həyətində "açıq kitabxana günü" keçirilib. Qax rayonu Əmbərçay kənd kitabxanası və Oğuz rayon MKS-nin Böyük Söyüdlü kənd kitabxanası isə "nağıl saatı" təşkil edib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının oxu zalı "Yüksək mədəniyyətli insan və Azərbaycanın gələcəyi" mövzusunda kulturoloq Fuad Məmmədovla onlayn görüş keçirib. MKS-nin 7 saylı kitabxana filialı Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Heydər Əliyev Mərkəzinə "Muzeyləri tanıyaq və tanıdaq" layihəsi çərçivəsində onlayn ekskursiya təşkil edib. Goranboy rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi kiçikyaşlı uşaqların iştirakı ilə "Balacaların nağıl dünyası" adlı "nağıl saatı" təşkil edib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Tovuz rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Nağıllar aləminə səyahət" adlı səyyar sərgi təşkil edib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Diplomatların peşə bayramında Qarabağda




Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü – iyulun 9-da ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri üçün Qarabağa səfər proqramı təşkil edilib.

Xatırladaq ki, 9 iyul 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi diplomatik fəaliyyət haqqında normativ aktı – XİN-in katibliyi haqqında müvəqqəti təlimatı təsdiq edib. Bu, Azərbaycanda peşəkar diplomatiya fəaliyyətini tənzimləyən ilk normativ-hüquqi sənəd sayılır. Prezident İlham Əliyevin 24 avqust 2007-ci il sərəncamı ilə 9 iyul Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü elan edilib.

Əlamətdar gündə dövlət başçısının tapşırığına əsasən təşkil edilən səfərin iştirakçıları Füzuli rayonunda və Şuşa şəhərində olublar. Xarici diplomatik korpusun nümayəndələrini səfərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov müşayiət edirlər.

Öncə Füzuli rayonuna gələn diplomatik korpusun nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının tikintisi ilə tanış olublar. AZAL-ın əməkdaşı Valeh Əmiraslanov hava limanının tikintisi ilə bağlı diplomatları məlumatlandırıb. Bildirib ki, tikintisi bu ilin yanvarında başlayan hava limanının ərazisi 250 hektardır. Uzunluğu 3 km, eni 60 metr olan uçuş zolağı istənilən qabaritli təyyarələri qəbul edə biləcək. Hava limanına ilk təyyarələrin qəbulu (sınaq uçuşu) sentyabrın 5-nə nəzərdə tutulub.

Sonra xarici diplomatlar "Füzuli" yarımstansiyası ilə tanış olublar. "Azərenerji"nin Qarabağ regionu üzrə rəhbəri Mircəlal Hüseynov məlumat verib ki, iyunun 14-də açılışı olan yarımstansiya Füzuli şəhəri, şəhərətrafı kəndlər və hava limanını təminetmə gücünə malikdir.

Füzuli rayonundan Şuşaya gələn diplomatik korpus nümayəndələrinin burada ilk tanışlıq məkanı tarixi Şuşa qalası olub. Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qalanın tarixi, arxitekturası barədə xarici diplomatları məlumatlandırıb. Şuşa qalasının önündə xatirə fotosu çəkdirilib.

Diplomatik korpusun nümayəndələri Şuşada xan qızı Xurşudbanu Natəvanın inşa etdirdiyi bulaqla tanış olublar. Qonaqlara "Xan qızı bulağı"nın tarixi barədə məlumat verilib.

Xarici diplomatlar Şuşadakı Saatlı məscidinə baş çəkib, ermənilərin işğal zamanı məsciddə törətdikləri dağıntılarla tanış olublar. Diplomatlar erməni vandalizminin qurbanı olan daha bir tarixi mədəni abidə – Aşağı Gövhər ağa məscidində də olublar.

Daha sonra onlar Şuşada salamat qalmış yeganə məscidi – Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər. Bəzi müsəlman ölkələrinin diplomatları məsciddə namaz qılıblar.

Diplomatik korpusun nümayəndələri 2021-ci il iyunun 15-də tarixi Şuşa Bəyannaməsinin imzalandığı yerdə və qədim Mərdinli məhəlləsində olub, şəhərin mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Xurşudbanu Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin "güllələnmiş heykəlləri"ni ziyarət edib, Qarabağ xanlığının qurucusu Pənahəli xanın sarayının qalıqları olan əraziyə, Mehmandarovların malikanə kompleksinə, Qazançı kilsəsinə baxış keçiriblər. Qonaqlar Şuşadakı çörək sexində bişirilən "Qala çörəyi"nin dadına da baxıblar.

Səfər iştirakçıları Azərbaycan dövləti tərəfindən Şuşada aparılan abadlıq-quruculuq və təmir-bərpa işləri barədə ətraflı məlumatlandırılıb.



İyulun 9-u gecə Şuşada qalan qonaqların qala-şəhərdə son tanışlıq məkanı Cıdır düzü olub. Onlar Cıdır düzündən açılan gözəl mənzərəni seyr ediblər. Burada qonaqlar üçün çay dəsgahı təşkil olunub.

İyulun 10-da diplomatik korpus nümayəndələrinin Şuşaya səfəri başa çatıb.

### "Diplomatlar real faktlar ilə yerində tanış olmaq imkanı əldə etdilər"

Ölkəmizin əraziləri işğaldan azad edildikdən və 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri təşkil olunur. Onlar yerindəcə mövcud vəziyyətlə, eləcə də ermənilərin 30 il ərzində törətdikləri vandalizm, Azərbaycan xalqının tarixi-mədəni irsinin talan və məhv edilməsi ilə tanış olurlar.

Bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev əcnəbi diplomatların Şuşaya səfərindən danışarkən deyib (APA).

Prezidentin köməkçisi qeyd edib ki, ötən müddətdə Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Laçın və Ağdam rayonlarına müxtəlif səfərlər təşkil olunub. Hikmət Hacıyevin sözlərinə görə, 9-10 iyul tarixlərində Şuşa şəhərinə səfərdə ümumilikdə 46 ölkənin diplomatları iştirak ediblər: "Səfərdə Avstriya, Belarus, Bolqarıstan, Braziliya, Çin, Əfqanıstan, Əlcəzair, Fələstin, Gürcüstan, Xorvatiya, İordaniya, İsrail, İsveç, İsveçrə, İtaliya, Kolumbiya, Koreya, Qətər, Latviya, Macarıstan, Malayziya, Meksika, Mərakeş, Niderland, Pakistan, Polşa, Serbiya, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkiyə, Ukrayna, Yaponiya, Yunanıstan səfirləri, Belçika, BƏƏ, Çili, Estoniya, İraq, İran, Qazaxıstan, Litva, Liviya, Rumıniya, Slovakiya, Sudan və Venesuelanın müvəqqəti işlər vəkilləri, eləcə də Dünya Səhiyyə Təşkilatının və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ölkəmizdəki nümayəndəliyi iştirak etmişlər. Bu səfərlərdə, xüsusilə Şuşaya səfərdə iştirak etmiş bütün səfirlərə və əcnəbi diplomatik xidmət əməkdaşlarına təşəkkürümüzü bildiririk".

Qeyd edək ki, Azərbaycanda 66 dövlətin səfirliyi, 22 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur.

Hikmət Hacıyev xarici diplomatların işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkilinin məqsədini də diqqətə çatdırıb. Bildirib ki, bu kimi səfərlər olduqca əhəmiyyətlidir: "Diplomatlar real faktlar ilə yerində tanış olmaq imkanı əldə etdilər. Səfirlərin tam dolğun məlumatla təmin olunması onların təmsil etdikləri ölkələrin düzgün məlumatlandırılması və yalan və qərəzli siyasi kampaniyaların qarşısının alınmasıdır. Bu, bir daha Azərbaycanın bu kimi məsələlərdə açıqlığını və şəffaflığını göstərir".

Prezidentin köməkçisi bildirib ki, xarici diplomatlar daha öncə Füzuli və Ağdam kimi şəhərlərin ermənilər tərəfindən sistematik şəkildə dağıdılmasının nəticələrini öz gözləri ilə görmüşdülər. "Həmin şəhərlərdə fiziki olaraq ermənilərin mülki əhalisi yaşamırdı. Amma eyni mənzərənin onlar Şuşa şəhərində də şahidi oldular. Ermənilər Şuşa şəhərində yaşasalar da, Şuşa da çoxsaylı dağıntılara məruz qalıb və onun maddi mədəni irsinə ciddi ziyan dəyib. Diplomatik heyət də daxil olmaqla, heç kim Ermənistanın bu vandalizm əməllərini törətməkdə məqsədinin nədən ibarət olmasına birmənalı cavab tapa bilmirdi. Əslində, cavab sadədir. Ermənilər Şuşa daxil olmaqla, digər işğal etdikləri ərazilərə yad olub, ona görə də müvəqqəti işğal dövründə yalnız talanla məşğul olublar" – deyə Hikmət Hacıyev vurğulayıb.

O qeyd edib ki, işğaldan azad olunmuş Füzulidə və Şuşada qısa müddət ərzində infrastruktur layihələrinin belə yüksək sürətlə həyata keçirilməsi hər kəsdə böyük heyranlıq doğurub. "Füzuli" yarımstansiyasından Şuşa şəhərinə elektrik enerjisinin çatdırılması, yol-nəqliyyat infrastrukturunun qurulması, ələlxüsus çətin relyef şəraitində "Zəfər yolu"nun və digər paralel yolların çəkilməsi qonaqlarda böyük təəssürat yaradıb.

Hikmət Hacıyev bildirib ki, Prezidentin tapşırığına uyğun olaraq, belə səfərlər bundan sonra da təşkil olunacaq.

## Şuşada Mehmandarovların malikanəsi haqqında

### Dirijor Mustafa Mehmandarovun açıqlaması



"Son vaxtlar mətbuatda Mehmandarovlar nəslinin tarixi və Şuşa şəhərindəki məşhur evlə bağlı yanlışlıqlara yol verilir" – Mehmandarovlar nəslinin nümayəndəsi – Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Vyana Konservatoriyasının məzunu Mustafa Mehmandarovun mətbuata açıqlamasında belə deyilir.

Dirijor bildirib ki, tanınmış bəy nəsli olan Mehmandarovların Qarabağ xanı Pənahəli xanla qohumluğu olub. Bu nəslin nümayəndələrindən biri – Sadıq bəy Mehmandarov vaxtilə Lənkərana köçür və orada Azərbaycanın ilk hərbi naziri, tanınmış general Səməd bəy Mehmandarov dünyaya gəlir. Səməd bəy Lənkəranda boya-başa çatıb, həyatının çox hissəsini Rusiyada yaşayıb, artilleriya generalı rütbəsinədək yüksəlib. General Səməd bəy Mehmandarov Şuşada heç vaxt yaşamayıb və onun orada heç bir mülkü olmayıb.

Mustafa Mehmandarov qeyd edib ki, televiziya kanallarında tez-tez nümayiş etdirilən Şuşadakı məşhur ev Kərim bəy Mehmandarov və onun həyat yoldaşı İran şahzadəsi Zəri xanım Qacarın ailəsinə aid olub. Kərim bəy Mehmandarov ali tibb təhsili alan ilk azərbaycanlılardan biri olub. O həm də xalqımız qarşısında böyük xidmətləri olan "Difai" təşkilatının Qarabağ bölməsinin rəhbəri olub. O, qarabağlıların yaddaşında insanları təmənnasız müalicə edən və xalqı erməni təcavüzkarlarından qoruyan həkim kimi qalıb.

M.Mehmandarov əlavə edib ki, Səməd bəy Mehmandarov və Kərim bəy Mehmandarov əmi oğulları kimi çox mehriban olublar. Səməd bəy Peterburqda təhsil alan zaman Kərim bəy Mehmandarovun kirayə götürdüyü evdə qalıb. "Bu gün Mehmandarovların bütün nəsli Şuşanın işğaldan azad olunmasına görə Azərbaycan xalqının dahi oğlu İlham Əliyevə çox minnətdardırlar, Kərim bəy Mehmandarovun evinin bərpasına başlanmasına görə Prezidentə və hörmətli Mehriban Əliyevaya dərin təşəkkürlərini bildirirlər", – deyə M.Mehmandarov bildirib.

## Rusiya səfirliyində təltif mərasimi

İyulun 12-də Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyində Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktoru Ədalət Hacıyevin "Puşkin" medalı və teatrın baş rejissoru Aleksandr Şarovskinin "Dostluq" ordeni ilə təltif olunması mərasimi keçirilib.

Rus Dram Teatrının direktoru və baş rejissoru Rusiya Prezidenti Vladimir Putinin fərmanına uyğun olaraq təltif ediliblər.

Mədəniyyət xadimlərinə mükafatları təqdim edən Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov onların Rusiya-Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsinə və ölkəmizdə rus teatr sənəti ənənələrinin qorunub saxlanılmasına böyük töhfə verdiklərini deyib.

Rus Dram Teatrının direktoru və baş rejissoru fəaliyyətlərinə verilən bu yüksək qiymətə görə Rusiya Prezidenti Vladimir Putinə dərin minnətdarlıqlarını ifadə edərək, bundan sonra da Azərbaycanda teatr sənətinin inkişafı və iki xalq arasında humanitar əməkdaşlığın genişləndirilməsi üçün səy göstərəcəklərini bildiriblər.



## "Qaliblər düşərgəsi"nin iştirakçıları Qobustan qoruğunda olublar

Paytaxtın Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki Humanitar fənlər təmayüllü gimnaziyada təşkil olunan "Qaliblər" düşərgəsinin iştirakçıları Qobustan Dövlət Tarix-Bədii Qoruğuna ekskursiya ediblər.



Uşaqlar Qobustan qayalarındakı insan, heyvan, kollektiv əmək, qayıq şəkilləri, döyüş və ov səhnələrinin təsvirlərinə baxıblar. Ziyarətçilər qoruq ərazisində Qobustan muzeyindəki eksponatlarla tanış olub, unudulmaz anlar yaşayıblar.

Qeyd edək ki, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanların övladları üçün nəzərdə tutulan "Qaliblər" düşərgəsi "For Azerbaijan" Xeyriyyə Təşkilatının təşəbbüsü, Dövlət Miqrasiya Xidmətinin təşkilati dəstəyi, Təhsil, Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar, Ekologiya və Təbii Sərvətlər, Mədəniyyət nazirlikləri, Sosial Xidmətlər, Bakı Nəqliyyat və Dövlət Turizm agentlikləri, digər dövlət qurumları, özəl sektor və qeyri-hökumət təşkilatlarının birgə səyi ilə təşkil edilib.

## Litvalı jurnalist Vətən müharibəsi barədə sənədli film çəkəcək

### Xocalı haqqında filmin müəllifidir

Litvalı hərbi jurnalist Riçards Lapaitis Azərbaycanın 2020-ci il Vətən müharibəsi barədə sənədli film çəkəcək. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva litvalı jurnalist Riçards Lapaitis və çəkiliş qrupu ilə görüş keçirib.

Ombudsman Aparatının mətbuat xidmətindən verilən xəbərə görə, görüşdə litvalı jurnalistin Xocalı soyqırımından bəhs edən "Sonsuz dəhliz" sənədli filmi barədə də söhbət açılıb. Richards Lapaitis filmin çəkilişi zamanı Xocalıda kütləvi qətliamdan sağ çıxmış insanlarla görüşdüyünü, yaxınlarını itirənlərin acı hekayələrini dinlədiyini, eyni zamanda bu film vasitəsilə erməni vəhşiliklərini dünya ictimaiyyətinə çatdırdığını bildirib.

Görüşdə həmçinin 44 günlük Vətən müharibəsindən bəhs edən yeni sənədli filmin çəkilişləri ilə bağlı fikir mübadiləsi aparılıb. Ombudsman tərəfindən müharibə dövründə və müharibədən sonra həyata keçirilən fəaliyyət, aparılan faktaraşdırıcı missiyalar barədə qonağa geniş məlumat verilib.

## "Saytların dil mənzərəsi"

### Monitorinq Mərkəzi hesabatını təqdim edib

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi informasiya saytları ilə bağlı hesabat hazırlayıb. İyulun 9-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında monitorinq hesabatının təqdimatına həsr olunmuş "Saytların dil mənzərəsi" mövzusunda tədbir keçirilib.

Müzakirələrdə dilçi alimlər, ziyalılar, monitorinqi aparılmış saytların nümayəndələri iştirak ediblər.

Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva dilimizin saflığının qorunmasının, daim diqqətdə saxlanılmasının bütün kütləvi informasiya vasitələrinin, o cümlədən saytların ümumi işi olduğunu vurğulayıb. Qeyd edib ki, bu, olduqca vacib məsələdir. Azərbaycan dilinin inkişafı, onun saflığının qorunması və təkmilləşdirilməsi istiqamətində müvafiq fərman və sərəncamlar imzalanıb, dövlət proqramları həyata keçirilib.

Sevinc Əliyeva vurğulayıb ki, 60-dan artıq saytı əhatə edən monitorinqin nəticələrinə dair hesabatda ümumilikdə beş mindən artıq dil faktı qeyd olunub. Bildirilib ki, 2020-ci il oktyabrın 15-dən fəaliyyətə başlayan Monitorinq Mərkəzinin əsas məqsədi dilimizin saflığını qorumaq və Azərbaycan dilinin düzgün tətbiqi məsələlərinə nəzarət etməkdir.

Mərkəzin Analitik təhlil və proqramlaşdırma şöbəsinin müdiri, dosent Şahlar Məmmədovun monitorinqin nəticələrini əks etdirən "Saytların dil mənzərəsi" mövzusunda hesabat məruzəsi dinlənilib. O, monitorinqin aparılması prinsipləri haqqında məlumat verib, saytlarda rast gəlinən norma pozuntuları, mövcud vəziyyətdən çıxış yolları ilə bağlı təklifləri tədbir iştirakçılarının nəzərinə çatdırıb. Bildirib ki, saytları monitorinq etməkdə məqsəd ədəbi dil normalarının pozulması hallarını müəyyən edərək təhlillər aparmaq, statistik baxımdan araşdırmaq, qüsurları aradan qaldırmaq istiqamətində təkliflər irəli sürmək, eləcə də gücləndirici tədbirlər görməkdir.

AMEA Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, professorlar Qəzənfər Kazımov, Sayalı Sadıqova, Sənubər Abdullayeva, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, AZƏRTAC-ın baş redaktoru Yaşar Quluzadə, monitorinqə cəlb olunmuş sayt redaksiyalarının təmsilçiləri hesabatın nəticələrinə münasibət bildirərək, fikirlərini bölüşüblər. "Mədəniyyət" qəzetinin baş redaktorunun müavini Fariz Yunisli geniş zəhmət tələb edən belə bir monitorinqin aparılmasına görə təşkilatçılara təşəkkürünü bildirərək, mədəniyyet.az saytı ilə bağlı hesabatda əks olunan məqamlara dair fikirlərini bildirib, həmçinin bu xüsusda bir sıra qeyd və təkliflərini diqqətə çatdırıb.

***

Yeri gəlmişkən, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi tərəfindən televiziya kanallarında aparılan monitorinq də yekunlaşıb.

Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva bildirib ki, telekanalların monitorinqi ilə bağlı nəticələr hazırda toplanılır və sentyabrda hesabat təqdim olunacaq.

Bundan sonra radioların biraylıq monitorinqi başlanacaq. Daha sonra isə ən problemli sahə olan reklamların monitorinqi aparılacaq.

# 841 yaşlı "Xosrov və Şirin"in ekran həyatı başlanır

## 12 bölümdən ibarət bədii serial çəkilir

Bu il dövlət başçısının sərəncamı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi münasibətilə ölkəmizdə "Nizami Gəncəvi İli" elan edilib. Əlamətdar ildə dahi şairə həsr olunan müxtəlif layihələr reallaşdırılır.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası və İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə istehsala başladığı 12 bölümdən ibarət "Xosrov və Şirin" bədii serialı da belə layihələrdəndir.

Bakının Mərdəkan, Buzovna, Şüvəlan və Maştağa qəsəbələrində lentə alınan serialın çəkiliş prosesinə biz də şahid olmaq istədik. Az getdik, düz getdik, gəlib çıxdıq hadisənin vaqe olduğu Buzovna qəsəbəsindəki çəkiliş məkanına. Bizi rejissor Elməddin Alıyev qarşıladı.

Çəkiliş meydançasının öz qaydaları var: qaynar, hərəkətli və bir anlıq tam sakitlik. Səs... Kamera... 6... 12... 1... 2... "Motor"... Beləliklə, çəkiliş davam edir.

Prosesi izlədiyimiz zaman rejissorların, operatorların və ümumilikdə bütün heyətin məsuliyyət və səmimi bir ortamda çalışmasının şahidi olduq.

Gəlişimiz filmin nizamişünaslıqla bağlı kadrlarının çəkilişinə təsadüf edib. Bu səhnədə Xalq artisti Tariyel Qasımov (nizamişünas Ümid müəllim) və gənc aktrisa çəkilir.

"Qapı açıldı, sən keçirsən sağ tərəfə, siz keçirsiz içəri, yuxarıdan pilləkənlə düşürsüz..." – rejissor növbəti səhnənin çəkilişindən əvvəl aktyorlara son göstərişləri verir.

Səhnə çəkilir. Xalq artisti Tariyel Qasımov çəkiliş qrupundan razılığını ifadə edir. Deyir ki, rejissorların aktyorlara münasibəti səmimi və xoşdur. Bu da iş prosesinə müsbət təsir edir.

Fasilədən istifadə edib rejissor Xəyyam Abdullazadə ilə qısa söhbət edirik. Rejissor öncə filmin çəkilişinə marağımıza görə təşəkkür edir. Bildirir ki, serialın çəkilişinin 17-ci günüdür:

– Bundan əvvəl biz Mədəniyyət Nazirliyi və İctimai Televiziyanın layihəsi olaraq Cəlil Məmmədquluzadənin eyniadlı əsəri əsasında "Anamın kitabı" serialını da 12 hissədən ibarət lentə aldıq. Bu il "Nizami ili" olduğu üçün tamaşaçılar İctimai Televiziyanın



ekranında "Xosrov və Şirin"i görəcəklər. Filmi başlayanda mən əsəri yenidən oxudum və gördüm ki, çağımızla nə dərəcədə səsləşir. Xosrovun və Şirinin xarakterləri bugünlə tam uzlaşır. Şirin milli-mənəvi dəyərlərə sadiq bir xanımdır. Düşünürəm ki, serialı tarixi film kimi lentə almaq düzgün olmazdı. Mövzu özlüyündə müasirdir. Zaman dəyişib, yüzilliklər keçib, amma insan psixologiyasının dərin qatlarında olan davranış və düşüncələr dəyişməyib. Nizami öz dövründə bunları gözəl müşahidə edib və qələmə alıb. Biz filmi, sözsüz ki, motivlər əsasında işləyirik və fərqli yozum və əlavələrimiz var. Ancaq əsas süjet xətti, qəhrəmanlar olduğu kimi saxlanılıb. İnanıram ki, maraqla qarşılanacaq.

*– Əvvəlki seriallarınızda fərqli yanaşmalarınız tamaşaçılar tərəfindən necə qarşılanmışdı?*

– Mövzudan çox şey asılıdır. Birinci işimiz Cəfər Cabbarlının "Solğun çiçəklər"i oldu. Bu faciə janrında sevgi hekayəsi idi və tamaşaçının onunla bağlı sualları yox idi. Hər şey, demək olar ki, aydın idi. Lakin dərin qatları, sosial mesajları olan və ümumiyyətlə, siyasi-ideoloji problemləri qabardan "Anamın kitabı" serialının "Youtube" səhifəsində çoxsaylı şərhlər qeyd edildi. Hətta tamaşaçılar "Facebook" üzərindən bizə yazıb görüşmək də istədilər. O tamaşaçılar ki, filmdə verdiyimiz mesajları duymuşdular. Onlarla görüşdük və öz fikirlərini bildirdilər. Çünki bu əsərdə türkçülük ruhu var. Çox maraqlı idi ki, biz ötən il sentyabrın 16-da çəkilişləri bitirdik, 27-si Vətən müharibəsi başlandı. Biz haradan bilərdik ki, serialda verdiyimiz mesajlar bir neçə gün sonra reallığa çevriləcək. Deməli, düzgün yolda idik. "Xosrov və Şirin" serialında da yanılmayacağımıza əminəm. Poema böyük həcmli əsərdir və biz onu bir az toparlamışıq. Serialın ssenari müəllifi İlqar Fəhmidir və o, klassik ədəbiyyatı gözəl bilir. Onun təcrübəsi köməyimizə çox çatdı. Hazırda proseslərdə də iştirak edərək öz məsləhətlərini verir.



Tarixi filmləri işləmək rəssam üçün hər zaman daha çətin və məsuliyyətdir. Çəkiliş məkanında serialın rəssamı Vüsal Rəhimi də görürük. O, tanınmış kino rəssamlarımız Mais Ağabəyov və Kamil Nəcəfzadədən dərs alıb. Deyir ki, uzun müddətdir teatr sahəsində fəaliyyət göstərir. Bu film onun kinoda ilk işidir: "Filmdə həm tarixi, həm də müasir dönəm var. Bu səbəbdən də tarixi mərhələni həvəslə işlədim. İsti və soyuq rəngləri hər iki dönəm üçün istifadə edirik. Hazırda çəkiliş müasir dönəmi nümayiş etdirir və isti rənglər (qırmızı, qəhvəyi və s.) bu məkanda çoxluq təşkil edir. Şirinin evində isə biz soyuq rənglərə üstünlük vermişik. Geyim, dekor və rekvizitdə bu incəlikləri qorumağa çalışırıq".

Serialda Nizaminin 1180-ci ildə qələmə aldığı "Xosrov və Şirin" poemasındakı hadisələrin kompozisiyası və süjeti saxlanılmaqla müasir dövrümüzə proyeksiya olunub. Psixoloji dram strukturunda olan serialın qayəsi həm müasir tamaşaçıları Nizami yaradıcılığı ilə tanış etmək, həm də dahi şairin kəlamlarını bir daha diqqətə çatdırmaq, gələcək nəsillərə ötürməkdir. Eyni zamanda serial göstərəcək ki, dahi Azərbaycan şairinin səkkiz əsr öncə yazdığı bir əsərdə dramaturji qaydalar, süjetin inkişaf xətti kimi prinsiplər necə dəqiqliklə yerinə yetirilib. Buna görə də əsər və əsərdəki qəhrəmanlar, xarakterlər bu günün bir çox ədəbi əsərlərindən daha müasir və daha aktualdır. Məhz bu əsər əsasında serialın çəkilməsinin bir səbəbi də var. Məlumdur ki, üzdəniraq erməni ədəbiyyatçıları bu əsərdəki Şirin obrazını erməni şahzadəsi kimi təqdim edirlər. Bu baxımdan serialın istehsalı ideoloji vasitə kimi də əhəmiyyət daşıyır.

Bədii serialın rejissorları Xəyyam Abdullazadə və Elməddin Alıyev, ssenari müəllifləri İlqar Fəhmi və Xəyyam Abdullazadədir. Quruluşçu operator Elman Əliyev, quruluşçu rəssam Vüsal Rəhim, prodüser Yalçın Verdiyev, baş prodüserlər Balakişi Qasımov və Fariz Əhmədovdur.

Rollarda Rüstəm Cəbrayılov (Xosrov), Kəmalə Piriyeva (Şirin), Tarıyel Qasımov (Ümid), Kamal Yaşar (Bəhram), Mələk Abbaszadə (Məryəm), Zəka Əhmədli (Qubad), Turanə Hüseynli (Şəkər), Asiman Ağa Rövşən (Şapur), Bəhruz Vaqifoğlu (Fərhad) və Nigar Güləhmədova (Məhinbanu) çəkilir.

**Lalə AZƏRİ**

# "Yaradanlar" İtaliyada mükafata layiq görülüb

Rejissor Şamil Əliyevin "Yaradanlar" bədii-sənədli filmi "Vesuvius İnternational Film Festival 2021"in (Napoli, İtaliya) münsiflərinin xüsusi mükafatına layiq görülüb. Bu barədə Şamil Əliyev məlumat verib.

"Yaradanlar" filmi dahi memarlar Mikayıl Hüseynov və Sadıq Dadaşovun həyat və yaradıcılığı fonunda XX əsrdə kommunist ideologiyasının Azərbaycan mədəni irsinə, əxlaqına vurduğu şiddətli zərbənin araşdırılmasından bəhs edir. 1937-ci il repressiyasında onların qohumlarından olan ziyalıların əksəriyyəti məhv edildi. Mikayıl Hüseynov və Sadıq Dadaşov ömürlərinin bir hissəsini qorxu və mənəvi sıxıntılarla yaşamağa məcbur oldular.

Filmdə o da diqqətə çatdırılır ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ziyalıları rejimin təqiblərindən qoruyaraq onların yaşayıb-yaratması üçün qayğısını əsirgəməyib.

COVİD-19 pandemiyası ilə əlaqədar müsabiqələrin nəticəsi onlayn formatda elan olunub.

Qeyd edək ki, "Yaradanlar" filmi Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnamə" studiyasında 2020-ci ildə istehsal olunub. Filmin ssenari müəllifi Natiq Rəsulzadə, operatoru Rüfət Suleymanov, bəstəkarı Azər Əsgərov, rəssamı Lalə Hüseynzadə, prodüseri Nazim Hüseynovdur.

# Sumqayıt Dövlət Dram Teatrının "Dərs"i

Sumqayıt Dövlət Dram Teatrının yaradıcı heyəti 44 günlük Vətən müharibəsinə həsr olunan müxtəlif layihələr həyata keçirir, videoçarxlar hazırlayır. Teatr bu günlərdə "Dərs" adlı videofilmi təqdim edib.

Filmin qayəsi tarixi öyrənmək və unutmamaqdır. Kadrda məktəbin xadiməsi məktəb illərini xatırlayır. O, yazı taxtasında işğal olunmuş rayonların tarixini yaza bilmir, donub qalır. Müəllim onu danlayır... İndi o illərə qayıdır. Xəyalən özünü şagird sayır, qeyri-ixtiyari zamanı qarışdırıb əlini qaldırır... Əlini qaldırır ki, işğal olunmuş rayonların işğal tarixini deyil, artıq azad olunma tarixini söyləsin.

Filmin sloqanı kimi Mustafa Kamal Atatürkün kəlamı seçilib: "Tarixini bilməyən coğrafiyasını itirər".

Layihənin rəhbəri teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov, ssenari müəllifi və quruluşçu rejissoru Fuad Kazımov, quruluşçu operatoru Əsgər Hüsüyev, ideya müəllifi Nizami Mirzəyevdir. Rollarda Vəfa Qurbanova, Habil Xanlarov və Mələk Dadaşova çəkiliblər.

# Nakam ömrün rəngləri

Xətai Sənət Mərkəzində mərhum jurnalist, rəssam Taleh Cavanşiroğlunun (Vahabov) anım tədbiri və rəsmlərindən ibarət sərgi keçirildi.



İyulun 9-da "Qafqaz Media" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən sərgidə Taleh Cavanşiroğlunun "Zülmətdən işığa", "Şam ağacı", "Rənglər dünyası", "Qız qalası", "Nənəm, babam və mən", "Qana boyanmış narlar", "Göl qırağında" – ümumilikdə 11 əsəri nümayiş olunurdu.

Qafqazmedia.az saytının baş redaktoru Mirdaməd Əzizov tədbiri açaraq mərhumun qısa ömür yolu, jurnalist və rəssamlıq fəaliyyətindən danışdı. Bildirdi ki, Taleh Cavanşiroğlu 1988-ci ildə Bakıda doğulub. Gəncədəki Türk liseyində, Gəncə şəhər Uşaq rəssamlıq məktəbində təhsil alıb. Sonra Ankara Universitetinin Hüquq fakültəsində və Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsində oxuyub.

Taleh kiçik yaşlarından rəssamlığa maraq göstərib və 11 yaşında ilk dəfə Gəncədə fərdi sərgisi təşkil olunub. Sonralar ölkəmizlə yanaşı, Gürcüstan və Almaniyada da sərgiləri keçirilib. Eyni zamanda dövri mətbuatda çıxış edib. 19 iyul 2020-ci ildə ürəktutmasından dünyasını dəyişib.

Tədbirdə Suraxanı Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları şöbəsinin müdiri, ehtiyatda olan polkovnik-leytenant Elmar Hüseynov, bəstəkar-rəssam İmruzə Hüseynova və başqaları çıxış edərək Taleh Cavanşiroğlu ilə bağlı xatirələrini bölüşdülər. Bildirildi ki, ömrünə nakamlıq yazılan Taleh istedadlı bir gənc idi. Yaşasaydı, daha böyük sənət uğurlarına imza atacaqdı.

Çıxışlardan sonra Talehin anası – şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qafqaz Media" İctimai Birliyinin sədri Hacı Azadə Taleh Abbasqızı tədbir iştirakçılarına öz dərin minnətdarlığını bildirdi. O, "Taleh, haradasan"? kitabını qonaqlara hədiyyə etdi.

Tədbir iştirakçıları sərgi ilə tanış oldular.

**S.FƏRƏCOV**

# "Qarabağ dastanı"

## Otuz ilin həsrəti – 44 günün Zəfəri

Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə hazırlanan "Qarabağ dastanı, otuz ilin həsrəti – 44 günün Zəfəri" adlı kitab işıq üzü görüb.




Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 günlük II Qarabağ müharibəsində möhtəşəm Qələbə qazandı. Bütün xalqımız kimi Azərbaycan yazıçılarının da 30 ilə yaxın qəlbində daşıdığı acı, nisgil, həsrət, nəhayət sona yetdi.

Kitabda Qarabağla bağlı yazıçıların öz doğma bölgələri haqqında düşüncələrinə, xatirələrinə yer verilib. İşğalın gətirdiyi kədəri, eyni zamanda, qələbəmizdən qaynaqlanan qüruru əks etdirən bu yazılar Azərbaycanın böyük Zəfərinin əbədiləşməsinə qələm adamlarının töhfəsidir. Bu yazılarda Qarabağın tarixinə dair maraqlı faktlar, unudulmaz duyğular, müəlliflərin şirinli-acılı xatirələri əksini tapıb.

"Təhsil" nəşriyyatında çap edilən, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitabın ideya müəllifi Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar, ön söz müəllifi və redaktoru AYB-nin sədr müavini Rəşad Məciddir.

Kitabın üz qabığındakı "Cıdır düzündə Azərbaycan bayrağı" tablosunun müəllifi Xalq rəssamı Sakit Məmmədovdur.

# Ssenari müsabiqəsinin qalibləri elan edilib

## Biri həkim-pediatr, digəri iqtisadçıdır

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının elan etdiyi "Qarabağ Azərbaycandır!" qısametrajlı, tammetrajlı, sənədli və animasiya filmləri ssenari müsabiqəsinin nəticələri müəyyən olunub.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) mətbuat xidmətinin rəhbəri Əli Vəliyev bildirib ki, ssenari müsabiqəsinin münsiflər heyətinə Əməkdar incəsənət xadimi İntiqam Qasımzadə sədrlik edib. Münsiflər heyətinin üzvləri ittifaqın sədri, Xalq artisti Şəfiqə Məmmədova, Əməkdar incəsənət xadimləri Ayaz Salayev, Elxan Cəfərov və Əməkdar mədəniyyət işçisi Elçin Hami Axundov olub.

Münsiflərin yekun rəyi ARKİ İdarə Heyətinin geniş tərkibdə iclasında müzakirə edilib.

ARKİ-nin sədri Şəfiqə Məmmədova iclasda diqqətə çatdırıb ki, müsabiqəyə 48 ssenari təqdim olunub.

Münsiflər ssenarilərin ideya səviyyəsi, dialoqların, mətnlərin üslub və bədii xüsusiyyətləri, ssenarilərin müsbət və mənfi cəhətlərini qeyd ediblər. Münsiflər heyətinin üzvləri təəssüflə bildiriblər ki, müsabiqəyə sənədli film ssenarisi təqdim olunmayıb. Təqdim olunmuş animasiya filmləri üçün ssenarilərin isə heç biri ideya səviyyəsinə və aktuallığına görə müəyyən olunmuş tələblərə cavab vermir.

Münsiflər təqdim edilmiş ssenarilərə qiymət verilməsində ortaq məxrəcə gələrək nominasiya üzrə qalibləri elan ediblər:

Ən yaxşı tammetrajlı film ssenarisi – "Xəzər dalğası" (Elnur Rzayev). Mükafatı – 5000 manat.

Ən yaxşı qısametrajlı film ssenarisi – "Xarıbülbül" (Leyla Nəsibli). Mükafatı – 3000 manat.

Qeyd edək ki, müsabiqənin qalibləri olan Leyla Nəsibli ixtisasca həkim-pediatr, Elnur Rzayev isə iqtisadçıdır.

# Xalça sənəti və ipəkçilik

## Əməkdaşlıq memorandumu imzalanıb

"Azərbaycan xalçası" brendinin yaradılması, inkişaf etdirilməsi və xarici bazarlarda təşviqi istiqamətində atılan əhəmiyyətli addımların davamı olaraq "Azərxalça" ASC ilə "Azəripək" MMC arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.



Memorandumu "Azərxalça" ASC İdarə Heyətinin sədri Emin Məmmədov və "Azəripək" MMC-nin direktoru Zaur Yaqubov imzalayıblar.

Mərasimdə çıxış edən Emin Məmmədov Azərbaycan xalçaçılıq sənəti, bu sahəyə dövlətin qayğısı, yaxın gələcək üçün nəzərdə tutulan əsaslı dəyişikliklər və planlardan danışıb. Bildirib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması bu sənətə yüksək diqqət və qayğının göstəricisidir. Dövlət Proqramında xalçalarımızın ölkə brendi olaraq dünya bazarına ixrac olunması qarşıya qoyulan əsas vəzifələrdən biridir.

İdarə heyətinin sədri vurğulayıb ki, milli mədəniyyətimizin inkişafında böyük rolu olan Birinci vitse-prezident Mehriban xanım Əliyeva xalçaçılıq sənətinin yaşadılmasına da dəyərli töhfələrini verir.

Qeyd edilib ki, xarici bazara yalnız milli naxışlı klassik xalçalar deyil, müasir və fərqli düşüncəli həm yerli, həm də xarici gənc xalçaçı rəssamlarla hazırlanan və müasir bazarın istəklərinə uyğun xalçaların çıxarılması istiqamətində işlər aparılmalıdır.

Zaur Yaqubov "Azəripək" MMC-nin fəaliyyəti, görülən işlər haqqında məlumat verib və gələcək uğurlu əməkdaşlıq üçün fikirlərini bölüşüb.

Qeyd edək ki, memoranduma əsasən, "Azərxalça" ASC bundan sonra xalçaların toxunmasında istifadə ediləcək ipək ipliyini "Azəripək" MMC-dən satın alacaq. Həmçinin istehsal olunan məmulatların satışına dəstək sahəsində əməkdaşlıq ediləcək, yun və ipək ipliyinin istehsal prosesinin təşkilində təcrübə mübadiləsi aparılacaq.

Xatırladaq ki, buna qədər "Azərxalça" ASC ipək xalçalar istehsal etməyib. Bundan sonra "Azəripək" MMC-dən əldə olunan ipək iplik yeni və eksperimental xalçaların toxunmasında istifadə olunacaq.

Sədayə Mustafayeva – 95

# Kino salnaməmizin Anası

**Kino... Çoxları bu sözü eşidəndə onu sehrli aləm, möcüzələrlə dolu bir dünya, sirli bir pəncərə kimi xatırlayır. Doğrudan da, kinematoqrafiya sənəti özünün canlılığı ilə digər sənət növlərini üstələyən cazibədar bir aləmdir. Kinematoqrafiya geniş texniki imkanlara malik olmaqla canlı gerçəklikləri, keçmiş və gələcəyi, müxtəlif zaman-məkanları bütün sənət növlərindən seçilərək özündə əks etdirməyi bacarır. Bu nağılvarı aləmin əbədiyaşar əsas sakinləri isə aktyor və aktrisalardır. Bu gün bu sehrli dünyanın əbədiyaşar sakini, Azərbaycan kinosunda Ana obrazları ilə yaddaşlarda yaşayan Xalq artisti Sədayə Mustafayevanın kino fəaliyyətindən söhbət açmaq istəyirəm.**

Sədayə Mustafayeva xoşbəxt taleli sənətkarlarımızdan olmaqla 78 illik ömrünün 64 ilini Azərbaycan mədəniyyətinə həsr etmiş səhnə ustalarımızdandır. Bu ömrün 54 illik səhnə fəaliyyəti isə Gəncə Dövlət Dram Teatrının tarixi ilə bağlıdır.

Sədayə İsmayıl qızı Mustafayeva 1926-cı il iyulun 15-də Şəkidə anadan olub. 11 yaşında olarkən anasını itirib. Beşillik orta təhsilini bitirdikdən sonra 1941-ci il müharibəsi başlayır. O, atası İsmayıl ilə qardaşı Məhəmmədi müharibəyə yola salıb və Şəkidə fəaliyyət göstərən İpəkçilik kombinatında Lətifə adlı bir ustanın yanında köməkçi kimi işləməyə başlayıb. O illəri xatırlayan Sədayə Mustafayeva yazırdı: "Atam və qardaşım müharibəyə yollandığından evdə qalan bir qardaşım və bacıma mən baxmalı oldum. Atamın dostu Nəsib kişi vəziyyətimizin çıxılmaz dərəcədə ağır olduğunu görüb mənə dedi ki, gəl səni aparım sənət məktəbinə. Həmin məktəbin şagirdləri toxuculuq kombinatında istehsalat təcrübəsi keçir və az miqdarda əməkhaqqı alırdılar. Mən razılaşdım və Lətifə adlı bir ustanın şagirdi oldum. Toxuculuq kombinatında maşınlar primitiv bir üsulla işlədilirdi. Bir dəfə dəstəyi fırladanda "çərnik" çıxıb üzümü yaraladı. Fəhlələr dedilər ki, bu balacaboylu, çəlimsiz qızın belə yerdə işləməyi mümkün deyil. Həm də İpəkçilik kombinatında işlədiyim müddət ərzində müəssisənin dram dərnəyinə yazıldım".

Sədayə Mustafayeva Şəkidə boyu çox uca olduğundan və həmişə də səmaya baxdığından Günəbaxan Muxtar adı ilə tanınan bir şəxsin vasitəsilə Şəki Dövlət Dram Teatrında aktrisa kimi fəaliyyətə başlayıb. Bu teatrın səhnəsində ilk dəfə Səməd Vurğunun "Vaqif" tarixi dramında rəqqasə kimi səhnəyə çıxıb. Bir müddət maraqlı obrazlar yaradan aktrisa daha sonra fəaliyyətini Ağdaş və Göyçay Dövlət Dram teatrlarında çalışıb. Özünümaliyyələşdirmə sistemindəki çətinliklərlə bağlı bir sıra region teatrları kimi bu teatrlar da 1949-cu ilin sonlarında bağlanır. Aktrisa üç dövlət teatrından – Naxçıvan, Gəncə və Gənc Tamaşaçılar teatrlarından dəvət alır. 1950-ci ilin martında Gəncə Dövlət Dram Teatrının direktoru, Xalq artisti Məhəmməd Burcəliyevin dəvəti ilə bu teatrı seçir və Gəncədə fəaliyyətini davam etdirir.

Xalq artisti Sədayə Mustafayevanın kino fəaliyyəti 1966-cı ildən başlayır. Kinorejissor Eldar Quliyevin diplom işi olan S.Qədirzadənin "Xəzan yarpaqları" hekayəsinin motivləri əsasında çəkilən qısametrajlı "Biri vardı, biri yoxdu" bədii filmi (quruluşçu rejissoru E.Quliyev) aktrisanın ilk debütüdür. Kinolentdə tənha qalmış iki nəfərin – qoca kişi ilə qarının nisgilli ovqatlarından, təsadüfi tanışlıqdan sonra qarşılıqlı qayğılarından bəhs olunur. Filmdə əsas rollara Sədayə Mustafayeva və Sadıq Həsənzadə çəkiliblər.



Debütdən sonra kinorejissorların diqqətini cəlb edən aktrisa bir-birinin ardınca daha filmlərə dəvət olundu. Maraqlıdır ki, kinorejissorlar onu nədənsə Ana obrazları üçün daha çox dəvət edirdilər. Bununla da aktrisa Azərbaycan kinosunun tarixinə mahir ana obrazlarının yaradıcısı olaraq düşür.

1969-cu ildə kinorejissor Muxtar Dadaşovun Süleyman Rəhimovun "Mehman" povesti əsasında ekranlaşdırdığı "Qanun naminə" bədii filmində yaratdığı Xatun obrazı aktrisanın yaddaqalan surətlərindən biridir. Filmdə Xatun ananın oğluna olan sədaqəti, onun səmimi söhbət və nəsihətləri aktrisanın ifasında azərbaycanlı qadınlarına xas olan xüsusiyyətləri ilə diqqəti cəlb edir. Qoca, sadə qadının mərd xüsusiyyətləri oğlu Mehmanın (Bimbolat Vatayev) yüksək mənəviyyatı şəxsində əks olunmaqla ana obrazının mülayim qadın simasının dəqiq ştrixlərində göstərilir.

Xalq artisti Sədayə Mustafayeva "Azərbaycanfilm"in istehsalı olan 20-dən artıq filmə çəkilib. "Qanun naminə"də Xatun, "Mən ki gözəl deyildim"də Gözəl, "Şərikli çörək"də Şamama, "Qayınana"da Mülayim, "Ölsəm bağışla"da Suğra xala, "Ağ atlı oğlan"da Mirvari nənə, "Həm ziyarət, həm ticarət"də Suğra xala, "Biri vardı, biri yoxdu"da Qadın, "Gün keçdi"də Əsmərin anası, "Qızıl ayaqlı qaz"da Şəfiqənin anası, "Var olun, qızlar"da Rüstəmin anası, "Firəngiz"də Məsmə, "Gümüşü furqon"da Mədinənin anası, "İlıq dənizdə buz parçası"nda Təqaüdçünün anası, "Cin mikrorayonda"da Ana, "İşarəni dənizdən gözləyin"də Komandanın anası, "Şəhərli biçinçilər"də Humay, "Azərbaycanfilm"in Amerika kinematoqrafçıları ilə birgə istehsalı olan "İlk körpü" ("Dağıdılmış körpülər") filmində Əsmər obrazları aktrisanın böyük ustalıqla yaratdığı və yaddaşlarda yaşanan ana surətləridir.

Aktrisanın kino yaradıcılığındakı ana obrazları müxtəlif tipoloji status formasındadır. Bu filmlərdə hər bir dövrün konseptual məsələləri aktrisanın şəxsində obrazdaxili ifadə vasitələri ilə özünü göstərir. Belə maraqlı obrazlardan biri də Rüstəm İbrahimbəyovun ssenarisi əsasında 1986-cı ildə kinorejissor Rasim Ocaqovun ekranlaşdırdığı "Ölsəm, bağışla" bədii filmindəki Suğra xala obrazıdır. Qeyd etmək lazımdır ki, Xalq artisti Sədayə Mustafayeva kinorejissorlar içərisində daha çox Rasim Ocaqovun diqqətini cəlb edən sənətkarlardan olub. Belə ki, aktrisanı bir neçə filminə dəvət edən Rasim Ocaqov ona tapşırılacaq obrazların öhdəsindən böyük ustalıqla gələcəyinə inanıb.

1941-1945-ci illər müharibəsindən sonrakı illərdə baş verən hadisələrdən bəhs edən "Ölsəm, bağışla" bədii filmində aktrisanın ifasında Suğra xala ilk baxışda qayğısız, sakit görünsə də, bu mülayim qadın film boyu cəbhədən yenicə qayıdan oğluna qonşularının həyatından





söhbət açır. O, oğlunu məhəllə xəbərləri ilə tanış etməklə yanaşı hadisələrə özünün münasibətini də bildirmiş olur. Xəstə oğlunun, həbsdə həlak olan həyat yoldaşının dərdi dözümlü ananın dilindən deyil, yalnız gözlərindən, ağarmış saçlarından oxunur. Aktrisa obrazın müxtəlif xarakterlərini tamaşaçıya sadələşdirilmiş bir formada çatdıra bilir. Suğra xala aktrisanın ifasında coşqun xarakterli qadın, oğlunun müharibədən gəlişinə sevinən adi bir insan kimi də göstərilə bilərdi. Lakin filmdəki rejissor traktovkasına xas olan həddən artıq millilik məhz Suğra xala obrazından süzülərək aqil Ana, təmkinli Azərbaycan qadını surəti olaraq böyük ustalıqla təqdim edilib.

Sədayə Mustafayeva 1994-cü ildə üç bədii filmə – Rasim Ocaqovun "Həm ziyarət, həm ticarət", Ənvər Əblucun "Ağ atlı oğlan" və Amerika kinematoqrafçıları ilə birgə "Azərbaycanfilm"də çəkilən, kinorejissor Rafiq Puyyanın ekranlaşdırdığı "İlk körpü" ("Dağıdılmış körpülər") bədii filmlərinə dəvət alıb. Bu filmlər aktrisanın son ekran yaradıcılığı hesab edilir.

Sədayə Mustafayeva Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə 1958-ci ildə "Əməkdar artist", 1981-ci ildə "Xalq artisti" fəxri adlarına və 2003-cü ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Unudulmaz sənətkarımız 2004-cü il avqustun 13-də Gəncə şəhərində vəfat edib.

**Anar BURCƏLİYEV**
**teatrşünas-tənqidçi**



# Nağıl kimi həyat...

2006-cı ilin bu günləri, təxmini günorta saatları idi. Hava çox isti, Bakı bulvarı boş idi. Günəşin göydən od ələdiyi saatda kimin açıq havada nə işi? Bircə biz – iki-üç gənc müxbir dəniz kənarında var-gəl edir, dəvətli olduğumuz tədbirin (premyeranın) başlayacağı saatı gözləyirdik.

Azərbaycan Dövlət Kukla Teatrının dəniz tərəfdən xidməti qapısında da sakitlik idi. Aradan 3-5 dəqiqə keçəndən sonra əsas qapıya tərəf keçdik. Tamaşanın başlamasına az qalmışdı. Mənzərə məni heyran etmişdi: günəşin yandırıcı şüalarında üz-gözü pörtən, bərbəzəkli paltarlarının və istinin təsirindən az qala dabanlarından tər damcılayan uşaqlar ikiəlli sıxdıqları gül dəstələrini valideynlərinə belə vermədən səbirlə qapının açılmasını gözləyirdilər. Hamısı da çox həyəcanlı və sevincək.

Budur, nəzarətçi qapını açdı və teatrın geniş foyesində – düz mərkəzdə dayanan bəyaz və zərli geyimli kişi üzündən səadət tökülən təbəssümlə "Uşaqlar, xoş gəlmisiz" dedi. Sonrakı sözləri uşaqların sevinc çığır-bağırlarında, "Ələkbər əmi" hay-həşirində eşidilməz oldu. "Ələkbər əmi" dizləri üstdə çöküb qollarını sonacan yana açdı. Özü də onlarla uşağı ağuşuna ala biləcəkmiş kimi geniş. Bir anda uşaqların əhatəsində itib-batan aktyoru dəqiqələr sonra qırmızı məxmər səhnə pərdəsinin önündə gördük. Teatr mövsümün sonlarına təsadüf edən növbəti ad gününü yeni tamaşa ilə qeyd edirdi...

Uşaqlar, elə böyüklər üçün də sehrli adam təəssüratı yaradan Əməkdar artist, sevilən aktyor, peşəkar kuklaçı Ələkbər Hüseynov ilə səhnədən son görüşümdən keçən bu 15 il ərzində bir həqiqət heç vaxt dəyişmədi. O, səhnə möcüzəsi idi...

İstedadlı aktyor və rejissor uşaqları təmənnasız sevməyi bacaran böyük ürək sahibi idi. Bütün uşaqları ətirli çiçək olduqlarına inandıran (illərlə "Hər birimiz bir çiçək" verilişinin aparıcısı olub), onların sonsuz sevgisində ağrı-acılarını unudan bənzərsiz teatr, səhnə adamı yaşasaydı, bu günlərdə 60 illik yubileyini qeyd edəcəkdi. Təbii ki, yenə sevimli balacaların əhatəsində, onların sevgi və gül-çiçək yağışının altında...

Ələkbər Adıgözəl oğlu Hüseynov 1961-ci il iyulun 7-də Bakıda anadan olmuşdu. Uşaqlıqdan teatra, səhnəyə marağı var idi. Elə bu istəklə də yoluna incəsənət sahəsindən saldı. 1978-1982-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram və kino aktyorluğu fakültəsində təhsil aldı. İkinci kursdan müəllimlərinin diqqətini cəlb etməyi bacardı. Yüksək enerjisi, tükənməz öyrənmək istəyi və özünü sərbəst, fərqli ifadə maneraları ilə seçilirdi. Təhsilini başa vurduqdan sonra təyinatla Şəki Dövlət Dram Teatrına göndərildi. O vaxt parlaq dövrünü yaşayan Şəki səhnəsi istedadlı gənc aktyor üçün əsl nümayiş meydanı idi. Eksperimental tamaşalar, fərqli üslub və yozumlarda səhnə axtarışları onun da obraz zənginliyinə şərait yaratdı.

Sonra özünün daxili dünyasına boylandı. Oradakı məsum uşağa qulaq verdi və illər əvvəlki arzusunu gerçəkləşdirmək – kukla tamaşası hazırlamaq amalı ilə Bakıya yollandı. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında işə qəbul olundu. Beləcə, 1988-ci ildən başlanan kuklaçılıq yolu ömrünün sonunadək davam etdi. Nə bu sənətə sevgisi tükəndi, nə də əsas səhnəsini dəyişdi. Televiziya tamaşalarında ("Yaşıl eynəkli adam", "Bala – başa bəla" və s.), filmlərdə ("Köpək", "Etiraf", "Təsadüfi görüş" və s.) tanınıb sevilsə də, geniş tamaşaçı kütləsinin rəğbətini qazansa da, teatra – ilk və son məhəbbətim dediyi səhnəyə sevgisi tükənmədi. Hara pərvazlansa da, isti, doğma yuvasını dəyişmədi.

Sənətdə qazandığı nailiyyətlərə görə "Humay" və "Qızıl dərviş" mükafatlarına layiq görüldü. 2000-ci ildə respublikanın "Əməkdar artisti" fəxri adını aldı. Uğurları sırasına nəinki Azərbaycanda, ümumən Şərqdə Polşanın "Təbəssüm" ordeninə layiq görülən ilk sənətçi olmasını da daxil etdi. Uşaqların səsverməsi ilə verilən bu mükafat onun məhz uşaqlara bəslədiyi böyük sevginin əsl rəmzi, əvəzi kimi yəqin ki, ən böyük qazancı idi.

Ələkbər Hüseynov xasiyyətcə çox şən, mehriban, vicdanlı





Bu teatrın səhnəsində irili-xırdalı saysız rol oynadı. Şirma arxasından – bəzən əl boyda, bəzən adam boyu kuklanın səsi, nəfəsi kimi uşaqların, teatrın sehrinə aludə olan sənətsevərlərin qəlbinə yol tapdı. Sənətini təmənnasız sevməyin nümayişi üçün səhnədə gah lələk ("Bülbül" tamaşası), gah taxta parçası ("Kral"), gah rəngli iplər ("Möcüzəli tamaşa"), gah quru kəllə ("Keçəlin toyu")... oldu. Yorulmadı, tükənmədi, bezmədi. Teatrların o ağır zamanlarında, maddi və mənəvi sıxıntılar girdabında əzildiyi məqamlarda da məbədindən qopmadı, yolundan sapmadı. Hamıdan bezəndə, qaçanda tək sığınacağı, yeganə təsəllisi teatrın ya rekvizit otağı, ya emalatxanası, ya da qaranlıq səhnəsi oldu.

İllərlə bu teatrın səhnəsində həm aktyor, həm də rejissor kimi dövr üçün yeni, fərqli və orijinal səhnə işlərinə imza atdı. Yerli və xarici qastrollarda milli kukla sənətimizi ustalıqla təmsil etdi. Bir neçə festivaldan, teatr yarışından laureat, qalib kimi döndü.

adam idi. Kollektivdə hər kəs onu eyni cür sevirdi. Səbəb isə sadə idi: Ələkbər adamlar arasında fərq qoymurdu, onları Tanrı möcüzəsi kimi qəbul edir və sevirdi. Özünə və başqalarına, daha doğrusu, aktyorlarına qarşı da çox tələbkar idi. Amma bunu öz işinə sevgisi, özünə qarşı amansızlığı ilə göstərirdi. Xüsusən teatra baş rejissor təyin olunmasından (2006) sonra qəribə bir tələskənlik, zamana diktə ilə işləyirdi. Hərçənd səhhəti günü-gündən ağırlaşır, ağrı-acısı artır, çöhrəsindəki həyat əlamətləri azalırdı. Amma o, inadla müqavimət göstərir, tez-tez dəyişən halını səhnə arxasında qoyub, məğrur baxışı, ılıq təbəssümü və məhrəm səsi ilə səhnəyə atılır, şaqraq səsi ilə obrazlarına sonsuz həyat bəxş etməyə çalışırdı.

Düşünürəm ki, onun aktyor taleyinə rəng qatan ən çox iki tamaşa olub. Onlardan biri "Keçəlin toyu" tamaşası idi və məhz bu tamaşadakı roluna görə o Türkiyədə keçirilən teatr festivalından laureat kimi qayıtmışdı. "Bülbül" isə ən uğurlu işlərindən, onu teatr mütəxəssislərinin, fərqli tamaşaçı qruplarının qarşısında qürurlandıran nümunələrdən idi. İki böyük kuklaçının – rejissor Namiq Ağayev və aktyor Ələkbər Hüseynovun zəngin yaradıcılıq zəkasının məhsulu idi "Bülbül".

Mütəxəssislər çox zaman monotamaşanı rejissordan çox aktyorun tamaşası hesab edirlər. Məncə, haqlıdırlar. Çünki əzəmətli, vahiməli səhnədə təktənha qalan aktyor ona dikilən gözlərə obrazını özü anladığı kimi anladıb, sevdirərsə, orada oyundan, aktyor yaşantısından danışmaq olar. Bu tandem – rejissorun aktyor oyununda zühuru "Bülbül"ü yaddaqalan, sevimli etdi. Tamaşa səhnədən-səhnəyə, ölkədən-ölkəyə gəzdi. Spesifik üslubda hazırlanan tamaşa Türkmənistan, İran və Hollandiyadan mükafatla qayıtdı. Teatr tariximizdə kuklaçıların o dövr üçün yaddaqalan uğuru kimi qeyd olundu. O "Bülbül" Tehran Universitetinin İncəsənət fakültəsinin aktyorluq bölməsində hələ də tədrisdədir.

Aktyorun özünü, daha doğrusu, həmkarlarının ömrünü kuklaya, kukla teatrı personajına – klouna çevirib bütün dramatizmi ilə tamaşaçıya təqdim etdiyi bir "Kral"ı da var. Bu tamaşa onun son oyunu, son işi idi. Həyatda, səhnədə hər zaman tamaşaçı qəlbini fəth edən, onun hisslərinə hakim olan kral o özü idi.

Ömrün sonuna yaxınlaşdığını bilə-bilə durmadan möcüzəyə inanan və hər yeni gün səhnə üçün planlar quran dünya boyda aktyor ürəyi 2007-ci ilin 2 avqustunda – 46 yaşında dayandı. Obrazı yaddaşlardan, yazıb-pozduğu planları isə göz yaşına çevrilib yanaqlardan ürəklərə axdı. Beləcə, təkcə uşaqlar yox, böyüklər, hətta özündən yaşlılar da Ələkbər əmisiz qaldı. Amma onun nağılı heç vaxt bitmədi...

**Həmidə NİZAMİQIZI**

## XIII-XIV əsrlər Azərbaycanda elm və mədəniyyət

### Farsdilli mənbələr əsasında

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elm Tarixi İnstitutunun Tarixşünaslıq və mənbəşünaslıq şöbəsinin əməkdaşı Elxan Quliyevin "XIII-XIV əsrlər Azərbaycanda elm və mədəniyyət (farsdilli mənbələr əsasında)" kitabı çap olunub.

Kitabın elmi redaktoru institutun direktoru, tarix elmləri doktoru Məryəm Seyidbəyli dir.

Nəşrin məqsədi XIII-XIV əsrlərdə farsdilli qaynaqlarda Azərbaycanın elm və mədəniyyət tarixinə dair məlumatları üzə çıxarmaq, habelə müasir tədqiqat əsərlərindən faydalanaraq həmin dövrlərdə Azərbaycanın elm və mədəniyyət tarixini işıqlandırmaqdır. Bəhs olunan dövrlərdə fars dilində yazılan tarixi mənbələrdə Azərbaycan elm və mədəniyyət tarixinə dair məlumat və faktlar kitabın əsasını təşkil edir.

Kitab XIII-XIV əsrlərdə Azərbaycanda mənəvi və mədəni həyat, dini görüşlər, bayramlar, toy və yas mərasimləri, elm və mədəniyyət ocaqları, kitabxanalar, səhiyyə, humanitar, ictimai, dəqiq və təbiət elmləri, eləcə də incəsənət, peşə və sənətkarlıq, şəhərsalma və memarlıq haqqında geniş təsəvvür yaradır.

Nəşr müəllim və tələbələr, eləcə də idarəetmə ilə məşğul olan vəzifəli şəxslər, Azərbaycanın elm və mədəniyyət tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Bədii improvizələrin işığında

Çoxəsrlik Azərbaycan təsviri sənətinin müstəqillik dövrünü əhatə edən inkişafının ən səciyyəvi xüsusiyyətlərindən biri sənət meydanına gələn yeni müəlliflərin dünyamıza fərdi və fərqli bədii yanaşma sərgiləmələridir. Onların sırasında özünəməxsus yaradıcılıq axtarışlarını Əcəmi Naxçıvani, Bəhruz bəy Kəngərli yurdunda həyata keçirməkdə davam edən Əməkdar rəssam Cavid İsmayılovun adını çəkmək istərdik.



Son dövr yaradıcılığında müşahidə olunan dəst-xəttin daha da cilalandığını "Naxçıvan – bəşəriyyətin beşiyi" V Beynəlxalq Rəsm Festivalında işlədiyi "Qayıdış" tablosunda əyaniləşdirən rəssam, yağlı boya ilə işlədiyi bu mürəkkəb kompozisiyalı əsərində rəng-yaxı improvizələrinin bədii-texniki təsir gücünü sona qədər göstərməyə nail olmuşdur.

Cavid İsmayılov rəngkarlığının cəlbedici mayasını onun istənilən mövzulu – müxtəlif janrlı əsərlərindəki estetikanın gerçəkliyə bədii münasibətdə nümayiş etdirdiyi "müəllif səmimiliyi" təşkil edir. Məhz əsərlərində kiməsə bənzəməkdən və yaxud da nələrisə təqlid etməkdən uzaq olan səmimilikdən qaynaqlanan estetikada onun özünəməxsusluğunu şərtləndirən məziyyətlər duyulmaqdadır. Yaxşı haldır ki, bu estetikanın bədii dəyər tutumunu milli bədii qaynaqlarla yanaşı, bu gün də hamımızı heyrətləndirməkdə davam edən maddi mədəniyyət nümunələrində hifz olunan gözəllik işartılarının bir araya gətirilməsi təşkil edir. Tamaşaçının göz-gözə qaldığı müxtəlif janrlı tabloların rəng qatındakı cəlbedici və yaddaqalan tutumda milli dəyər saxlancımıza yaradıcı münasibət həm də ovsunlayıcı rəng improvizələri ilə ifadə olunduğundan, bu bədii nəticələr zamansızlığa və məkansızlığa qovuşmuş kimi qəbul olunurlar...



"Laylay"



"Qaranquşlar"

Gənc rəssam xüsusi vurğuladığımız bu bədii yanaşmanı ən müxtəlif janrlı əsərlərində sərgiləmişdir. Müəllifin həmin janrların estetik coğrafiyasının hüdudlarını duyulası dərəcədə genişləndirdiyi adi gözlə belə görünəndir. Bu mənada ilk növbədə "Musiqi qəlbdən gələndə", "Qaranquşlar", "Əli və Nino", "Dörd ünsür", "Laylay", "Novruz axşamı" və "Qayıdış" kimi süjetli kompozisiyaların adını çəkmək istərdik. Onun bu əsərlərin məna-məzmun yükünə gətirdiyi əyanilik başlıca ideyanın qabardılmasından keçdiyindən, buradakı fiqurlar və onları əhatələyən müxtəlif ayrıntılar bir-birini tamamlamaqla, həm də bədii bütövlüyün təminatçısı kimi çıxış edirlər. Müxtəlif dinə mənsub olan aşiqlərin bir-birinə qovuşmaq istəyinin ("Əli və Nino"), uzaq-yaxın keçmişdə yaşanan cəngavərlik dərslərinin 44 günlük Vətən müharibəsi döyüşçüləri üçün ruhlandırıcılığının, bahar müjdəli qaranquşların uçuşundakı axıcı ritmin ("Qaranquşlar"), səslənən musiqinin dinləyici ovsunlayıcılığının ("Musiqi qəlbdən gələndə") və körpəyə yönəli nəhayətsiz ana məhəbbətinin təcəssümündə ("Laylay") rəng plastikasının oynaqlığını şərtləndirən improvizələrin bədii yükü ovqatyaradıcı duyğulandırıcılığa kökləndiyindən, təqdim olunan müəllif fikri həm də düşündürücü baxılır...

Cavid İsmayılovun portret yaradıcılığının müasir rəngkarlığımızı özünəməxsus çalarlarla zənginləşdirdiyi danılmazdır. İsti-soyuq rənglərin cəlbedici "qonşuluğundan" yaranan bədii təzadın obrazlara bənzərsiz bədii-psixoloji tutum verməsi onun portretlərinin fərqləndirici-səciyyəvi xüsusiyyətidir. Rəng təzadlarının cəsarətlə tətbiqi rəssamın "Şairə Qönçəbəyim", "Xan qızı", "Düşüncələr", "Təmas" və "Vətən mənə oğul desə nə dərdim..." əsərlərində qabarıq ifadə olunmuşdur. Bu cür bədii yanaşmanın bizi müxtəlif taleli insanlarla qarşılaşdırması, həm də onların mənəvi dünyalarını gözoxşayan və düşündürücü məzmun yükünə bələdiyindən, tamaşaçının göz-gözə qaldığı bədii bütövlük – əsərlərin dominantına çevrilmiş obrazlar qürurverici qaynaq kimi qəbul olunur.

Ana xəttini Vətən sevgisi təşkil edən Məmməd Araz poeziyasının bədiiləşdirilməsində, ömür yolları təzadlı olan şairələrin talelərinə tutulan "bədii güzgü"də və məhəbbətlə sınağa çəkilən gənc qızların yaşantılarında rəssam yozumu gözoxşayan bədii improvizələrdən keçdiyindən onlar bədii həlli bir-birindən fərqlənən əsərlər kimi baxılırlar. Gözoxşayan rəng çalarlarını qrafik əlavələrlə zənginləşdirən müəllifin bununla rəng qatının cəlbedici oynaqlığını əldə etməsi bu portretlərdə qabarıqdır...

II Qarabağ savaşında əldə olunan Zəfərin gənc rəssamın yaradıcılığında dərin iz buraxdığını onun müxtəlif janrlı əsərləri də təsdiqləyir. Yuxarıda adını vurğuladığımız "Qayıdış" tablosu bədii miqyasına görə diqqətçəkəndir, desək, yanılmarıq.



Xalq şairi Məmməd Arazın portreti

Qənaətimizcə, bu tablo onun batal janrında daha möhtəşəm və yaddaqalan əsərlər yaratmaq potensialını gözəl əks etdirir. Bu mənada istedadlı rəngkarın yaratdığı müxtəlif döyüşçü - şəhid portretlərini də yaxın gələcəkdə baş tutacağı istisna olunmayan miqyaslı tabloya hazırlıq mərhələsi hesab etmək olar.

Rəssamın yağlı boya ilə çəkdiyi həmin portretlərdə ikonoqrafik dəqiqliyin bədii gerçəkliklə uğurlu sintezinə üstünlük verilməsi bədii vasitə kimi yaddaqalandır. Bununla belə, onun təntənəli xarakter daşıyan "Ömür yollarında" və "Gələcəyə inamla" portret-kompozisiyalarında fərdi improvizə potensialından nisbi istifadə olunduğu hiss edilsə də, torpaqlarımızın suverenliyi uğrunda canlarından keçməyə hazır olan Cavanşir Rəhimov, Əliyar Mirzəyev və Polad Həşimovun obraz-portretlərində rəssamın yaxı-cizgi ekspressiyasını yaddaqalan estetikaya çevirə bilməsi qabarıq görünməkdədir.

Cavid İsmayılovun portretlər qalereyasında yer almış digər obrazlara müəllif münasibəti göstərir ki, onun müxtəlif texnikalarda ərsəyə gətirilmiş lövhələrində uzaq-yaxın keçmişimizi şərəfləndirən şəxsiyyətlərə bədii yanaşmasında yaddaqalan mənəvi qaynaq yaratmaq istəyi öndədir. Bunu onun Naxçıvan torpağının rəmzinə çevrilən Bəhruz bəy Kəngərliyə həsr olunmuş portreti də təsdiqləyir. İsti-soyuq çalarların axıcılıqla əvəzlənməsindən yaranan bu obrazda nakam sənət aşiqinin çox qısa ömür yolunu şərtləndirən təzadlı yaşantılarına cəlbedici "bədii güzgü" tutulmuşdur, desək, həqiqəti söyləmiş olarıq...



Şəhid Xudayar Yusifzadənin portreti

Gənc rəssamın vaxtaşırı müraciət etdiyi akvarel texnikasının da onun üçün önəmli bədii vasitə olması bu sahədə yaratdığı qrafik lövhələrdən görünməkdədir. Bunu şərtləndirən başlıca səbəb onun əsərlərində bu texnika üçün vacib və səciyyəvi olan rəng şəffaflığının sona qədər qorunub saxlanılmasıdır. Bunu Cavid İsmayılovun ərsəyə gətirdiyi mənzərə və natürmortlarında müşahidə etmək mümkündür. Onun bu texnikanın icra sənətkarlığına dərindən bələd olmasının nəticəsidir ki, tətbiq etdiyi bədii improvizələrin sayəsində akvarellə çəkilmiş müxtəlif janrlı əsərlərində təsvirlər təravətli və heyranedici görünürlər. Bunu "Naxçıvan nemətləri", "İlandağ", "Naxçıvan mənzərəsi ", "Natürmort" və s. qrafik lövhələri də təsdiqləyir.

Sonda rəssamın təsviri sənətdə yetişməkdə olan yeni nəslinin bədii vərdişlərə yiyələnməsində xidmətlərini də qeyd etmək istərdik. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin dekanı vəzifəsində çalışan Cavid İsmayılovun tələbələrinin respublikada keçirilən müsabiqələrdə müxtəlif mükafatlar qazanması da ali təhsil ocağında aparılan uğurlu tədrisin nəticəsi kimi qəbul olunmalıdır...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 14–16 iyul

### Azərbaycan

**14 iyul 1905** – Aşıq Alıxan Qarayazılı (Alıxan Qurban oğlu Ömərov; 1905-1998) Gürcüstanın Qarayazı bölgəsinin Kosalı kəndində anadan olub.

**14 iyul 1914** – Ədəbiyyatşünas, tərcüməçi Kövsər Məmməd qızı Tarıverdiyeva (1914-2014) İrəvan şəhərində doğulub. 50 ildən çox Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan ədəbiyyatı tarixini tədris edib.

**15 iyul 1925** – Xalq artisti, müğənni-pianoçu, professor Rauf İsrafil oğlu Atakişiyev (1925 – 3.2.1994) Bakıda anadan olub. 1953-cü ildən Akademik Opera və Balet Teatrının solisti olub, bir çox xarici ölkələrdə çıxış edib.

**15 iyul 1926** – Xalq artisti Sədayə İsmayıl qızı Mustafayeva (1926 – 13.8.2004) Şəkidə anadan olub. Şəki, Gəncə Dram teatrlarında çalışıb, filmlərdə ("Mən ki gözəl deyildim", "Ölsəm, bağışla", "Həm ziyarət, həm ticarət" və s.) yaddaqalan obrazlar yaradıb.

**15 iyul 1928** – Tanınmış tərcüməçi Mehdi Mirkişi oğlu Mirkişiyev (1928-1992) Cəbrayıl rayonunun Mirzəcanlı kəndində anadan olub. Rus dilindən çoxsaylı ədəbi tərcümələr edib.

**15 iyul 1930** – Bəstəkar, Xalq artisti, professor Azər Hüseyn oğlu Rzayev (1930 –14.12.2015) anadan olub. "Bakı-90" simfoniyası, kamera orkestri üçün "Noktürn" və s. əsərlərin müəllifidir. Filarmoniyanın bədii rəhbəri, Opera və Balet Teatrının direktoru olub.

**16 iyul 1913** – Xalq artisti, müğənni Mirzə Əbdülcabbar oğlu Babayev (1913 – 13.1.2003) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, filmlərdə ("Telefonçu qız", "Dərviş Parisi partladır", "Dəli Kür" və s.) maraqlı rollar oynayıb.

**16 iyul 1949** – Əməkdar artist, bəstəkar, skripka ifaçısı Fərhəng Rəhim oğlu Hüseynov (1949 – 16.2. 2010) anadan olub. Yaponiyada "İpək Yolu" müsabiqəsinin (1991) qalibi kimi "Kodayu" operasını yazıb, simfonik əsərlər müəllifidir.

**16 iyul 1958** – Xalq artisti İlham Təvəkkül oğlu Əsgərov (1958 – 6.9.2015) Masallı rayonunun Xoşçobanlı kəndində doğulub. Milli Dram Teatrında, televiziya tamaşalarında, filmlərdə ("Doğma sahillər", "Biz qayıdacağıq") maraqlı rollar oynayıb. Filmlərin səsləndirilməsində iştirak edib.

### Dünya

**14 iyul 1860** – Rus tarixçisi, şair, yazıçı və publisist Vasili Lvoviç Veliçko (1860-1904) anadan olub. Bir çox tarixi gerçəklərə işıq salan "Qafqaz" kitabının müəllifidir.

**14 iyul 1903** – Amerika yazıçısı İrvinq Stoun (İrving Stone; 1903-1989) anadan olub. Van Qoq, Cek London, Ziqmund Freyd və s. görkəmli insanlar haqqında bioqrafik romanların müəllifidir.

**14 iyul 1904** – Yəhudi əsilli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1978) laureatı İsaak Başevis-Zinger (İsaac Bashevis Singer; 1904-1991) anadan olub. Əsərləri: "Şeytan", "Nicatverən günahkar", "Muskat ailəsi" və s.

**14 iyul 1918** – İsveç rejissoru, ssenarist və yazıçı İnqrid Berqman (Ernst İngmar Bergman; 1918 - 30.7.2007) anadan olub. "Yeddinci möhür", "Yay gecəsinin təbəssümü", "Pıçıltı və qışqırıq" və s. filmlərə quruluş verib.

**14 iyul 1928** – Gürcü yazıçısı Nodar Dumbadze (1928-1984) anadan olub. "Mən, nənəm, İliko və İllarion", "Ağ bayraqlar" romanları, "Kukaraça" povesti və s. əsərlərin müəllifidir.

**15 iyul 1606** – Holland rəssamı Rembrandt Hermens Van Reyn (Rembrandt Harmenszoon van Rijn; 1606-04.10.1669) anadan olub. Məşhur əsərləri: "Samson və Dalila", "Valtasar qonaqlığı", "Danaya", "Avropanın oğurlanması", "Azğın oğulun qayıtması" və s.

**15 iyul 1901** – İtalyan filosofu, ekzistensializmin tanınmış simalarından biri Nikola Abbanyano (Nicola Abbagnano; 1901-1990) anadan olub.

**15 iyul 1919** – İngilis yazıçısı Ayris Merdok (Jean Iris Murdoch; 1919-1999) anadan olub. "Tor altında", "Dəniz, dəniz", "Mələklər zamanı", "Qara şahzadə" və s. romanların müəllifidir.

**15 iyul 1924** – Çeçen rəqqası, SSRİ Xalq artisti Mahmud Esenbayev (1924-2000) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında rəqqasa həsr olunmuş "Əmək və qızılgül" ("Mən rəqs edəcəyəm") filmi (rejissor Tofiq Tağızadə) çəkilib.

**16 iyul 1723** – İngilis rəssamı və incəsənət nəzəriyyəçisi Coşua Reynolds (Joshua Reynolds; 1723-1792) anadan olub. Məşhur əsərləri: "Veneranın kəmərini açan Amur", "İlanı boğan balaca Herkules" və s.

**16 iyul 1911** – Amerikalı aktrisa və rəqqasə, "Oskar" mükafatı laureatı Cincer Rocers (Ginger Rogers – əsl adı Virginia Katherine McMath; 1911-1995) anadan olub.

**16 iyul 1928** – Məşhur rus şairi Andrey Dementyev (1928 – 26.6.2018) anadan olub. Populyar mahnıların sözlərinin müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

# Klassik ədəbiyyatımızın yorulmaz tədqiqatçısı

## Professor Xəlil Yusifli Nizami "Xəmsə"sinə daxil olan beş poemanı nəşrə hazırlayıb

Bu il dünya şöhrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi qeyd edilir. Bu münasibətlə dövlət başçısının sərəncamı ilə ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunub. Bu o deməkdir ki, dahi şairin yaradıcılığına işıq tutan, əsərlərinin tərcüməsi və nəşrinə töhfə verən ədəbiyyatşünas alimlərin də bayramıdır. Nizami irsinin öyrənilməsində xidmətləri olan alimlərdən biri də Əməkdar elm xadimi, tərcüməçi, mətnşünas, professor Xəlil Yusiflidir. O, "Xəmsə"yə daxil olan beş poemanı ayrı-ayrılıqda nəşrə hazırlayıb, bəzilərinə ön söz yazıb.

Xəlil Həmid oğlu Yusifli 17 iyul 1935-ci ildə Qazax rayonunun Əli Bayramlı (indiki Aslanbəyli) kəndində anadan olub. Uşaqlıq illəri çətin və məşəqqətli illərə təsadüf edir. Beş yaşında ikən II Dünya müharibəsi başlayır. Atası Həmid müharibəyə gedir və geri qayıtmır. Gün-güzəranın çətin keçməsinə baxmayaraq, Xəlil 1955-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirir. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə qəbul olunur. 1960-cı ildə təhsilini başa vurur, təyinatla 1961-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlayır. 1962-ci ildə institutun Qədim və Orta əsrlər ədəbiyyatı şöbəsinin aspiranturasına qəbul olunur. 1967-ci ildə "Nizaminin lirikası" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyası müdafiə edir. Alim Nizami yaradıcılığı üzrə tədqiqatlarını daha da genişləndirir. 1987-ci ildə "Nizami Gəncəvi və Şərq İntibahı" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi, 1989-cu ildə isə professor elmi adı alır.

Xəlil Yusifli araşdırmalarında Nizami Gəncəvi yaradıcılığının elə bir sahəsi yoxdur ki, bu və ya digər şəkildə ondan bəhs etməsin. Buna görə də Nizaminin araşdırıcılarından söz düşəndə göz önünə ilk gələnlərdən biri də X.Yusiflidir. Görkəmli alim vaxtilə "Ədəbiyyat qəzeti"ndə dərc etdirdiyi "Nizaminin etnik mənsubiyyəti: həqiqət və uydurmalar" məqaləsində yazır: "Nizaminin etnik mənsubluğu onun əsərlərindən gün kimi aydındır.



Özünü dünyanın və bütün insanlığın şairi hesab edən bu dahi insan, fövqəlalim və sənətkar yeri düşdükcə hansı etnosa mənsub olduğunu bildirməkdən də çəkinmir. Onun Azərbaycan türkcəsində yazılmış əsərləri gəlib bizə çatmasa da, biz bu qənaətdəyik ki, bu bənzərsiz şair doğma türkcədə də əsərlər yazıb. Onun əsasən farsca yazması dövrün, zamanın və sarayların tələbi idi. Nizaminin türklüyünü danan, onun bir fars olduğunu iddia edənlərin yanlış, xəstə müddəalarını rədd edir və belə düşünürük ki, uydurma üsullarla Nizaminin türklüyü haqqındakı həqiqəti danmaq mümkünsüzdür".

X.Yusifli Nizami yaradıcılığının tədqiqi ilə davamlı məşğul olub, dahi şairin ideyalar aləmini, əsərlərinin sənətkarlıq xüsusiyyətlərini yüksək professionallıqla təhlil edib. Alimin "Nizaminin lirikası", "Şərqdə İntibah və Nizami Gəncəvi" monoqrafiyaları nizamişünaslığa dəyərli töhfə kimi səciyyələndirilir. Latın qrafikalı əlifbaya keçidlə bağlı 2004-cü ildə dahi şairin əsərlərinin yeddi kitabda çapa hazırlanması X.Yusifliyə tapşırılır və o bu işin öhdəsindən layiqincə gəlir. Onun AMEA-nın müxbir üzvü, mərhum Əliyar Səfərli ilə birgə yazdığı "Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı" dərsliyi uzun illərdir ali məktəblərdə bu dövrə aid əsas dərslik kimi istifadə olunur. Bundan əlavə, X.Yusiflinin "Məhcur Şirvani yeni təfəkkür işığında", "Dünya ədəbiyyatı tarixi", "Orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri" kimi kitabları da ədəbiyyatşünaslığımıza qiymətli töhfələrdir. "Dünya ədəbiyyatı tarixi" (Antik dövr) dərsliyi də onun bu sahədə fəaliyyətinin zənginliyini göstərir.

X.Yusifli həm də klassik ədəbiyyatımızın sanballı tərcüməçilərindəndir. O, M.Əvhədinin "Cami-cəm", Arif Ərdəbilinin "Fərhadnamə" (Q.Beqdeli ilə birlikdə) əsrlərini farscadan dilimizə tərcümə edib. Alim ilk dəfə Həqirinin "Leyli və Məcnun" poemasını tərtib edərək geniş ön sözlə nəşr etdirib. AMEA-nın Gəncə şəhərindəki Nizami Gəncəvi Mərkəzinin direktoru vəzifəsini icra edərkən Azərbaycan Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə ön söz və çevirmələrlə birlikdə hər biri 400 səhifə həcmində yeddi kitab onun tərtibçiliyi ilə nəşr olunub. Qazi Bürhanəddin, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və Məhəmməd Hadinin əsərlərindən ibarət olan bu kitablar alimin elmi fəaliyyətinin məhsuldarlığından xəbər verir.

Onu da qeyd edək ki, X.Yusifli klassik Azərbaycan ədəbiyyatının bir çox nümunələrini mənzum şəkildə tərcümə edib. Onun tərcümələri "Hikmət xəzinəsi" adlı müntəxəbatda, bir qismi isə ayrıca kitab şəklində çap olunub.

Görkəmli alimin əməyi yüksək qiymətləndirilib. Azərbaycanda təhsil və elmin inkişafındakı xidmətlərinə görə 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Nizami Gəncəvi irsinin tədqiqi və tədrisində uzunmüddətli səmərəli fəaliyyətinə görə isə 2015-ci ildə "Şöhrət" ordeni ilə təltif edilib.

Ömrünün müdrik çağlarını yaşayan professor Xəlil Yusifliyə cansağlığı və elmi fəaliyyətində uğurlar arzulayırıq.

**Savalan FƏRƏCOV**

№52 (1829)
14 iyul 2021
www.medeniyyet.az

# Türkcənin Anadoluda yazı dilinə çevrilməsi

## Yunus Əmrənin vəfatının 700-cü ildönümünə həsr olunmuş beynəlxalq simpozium



İyulun 12-də Ankarada Türk dünyasının böyük mütəfəkkiri, türkcənin ədəbi dil kimi təşəkkül tapmasında müstəsna xidmətləri olmuş şair Yunus Əmrənin vəfatının 700-cü ildönümünə həsr olunmuş "Türkcənin Anadoluda yazı dilinə çevrilməsi" adlı beynəlxalq simpozium işə başladı.

Simpozium Türkiyə Cümhuriyyəti Prezidenti Administrasiyasının himayəsi və Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu, Türk Dil Qurumu və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un birgə təşkilatçılığı ilə keçirilir.

Tədbirdən əvvəl "Yunus Əmrə: gəl, gör məni" adlı rəsm sərgisinin açılışı oldu. Sərgi Yunus Əmrənin həyat və yaradıcılığını, yaşadığı dövrü əks etdirir.

Simpoziumda açılış nitqi söyləyən Türk Dil Qurumunun rəhbəri, professor Gürer Gülsevin 2021-ci ilin Türkiyədə "Yunus Əmrə və Türk Dili İli" elan edilməsi münasibətilə gördükləri işlərdən danışdı. Bildirdi ki, türkcə ilə bağlı 38 təkrar, 66 yeni nəşr hazırlanıb, qurumun kitabxanasına 3 mindən çox yeni əsər təqdim olunub ki, bunlardan 60-ı əlyazmalardır. Hazırda "Türkiyə türkcəsi və dialekt atlası" layihəsi üzərində iş davam edir. Türkcə ilə əlaqədar 6 min yaşayış yerində aparılan araşdırmalar əsasında 200-ə qədər xəritə hazırlanacaq.

G.Gülsevin Türk Dil Qurumunun son otuz ildə fəaliyyətinin nəticəsi olan 1 milyon 200 min sözdən ibarət "Türkiyə türkcəsinin tarixi" lüğətinin bir hissəsinin bu ilin sonuna qədər təhvil veriləcəyini bildirdi. Professor elm qurumunun "Türkiyə türkcəsilə qarşılıqlı olaraq Azərbaycan, qazax, qırğız, türkmən, özbək, tatar türkcələrində danışma" layihəsinin də sentyabr ayında tamamlanacağını qeyd etdi.

Yunus Əmrə İnstitutunun rəhbəri, professor Şərəf Ataş Yunus Əmrə yaradıcılığından bəhs edərək bildirdi ki, xalqın içindən çıxan mütəfəkkir şair və alim xalqının dilini – türkcəni yüksək səviyyəyə qaldırıb: "Yunusun sözləri Quranın türkcəsidir. Dünya Yunusun sözlərilə daha yaşanılır hala gəlir və gələcək".

Simpoziumun açılışında Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun başqanı Məhəmməd Həkimoğlu da çıxış etdilər.



Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov simpozium çərçivəsində keçirilən "Müqayisəli türk ləhcələri lüğəti" kitabının otuzilliyi və Türk dünyasında türkologiya" mövzusunda paneldə çıxış etdi. Akademik bildirdi ki, türkcənin arxasında böyük güc dayandığı üçün türk dili daha da inkişaf edəcək: "Atatürkün danışdığı türkcədə bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünya miqyasında çox gözəl danışır. Əgər bizim dövlət başçılarımız gözəl danışırsa, türkcəmiz mütləq dünya dillərindən biri olacaq, çünki bunun arxasında türk dünyasının böyük gücü dayanır. Böyük güc olmayan yerdə də dilimizin inkişafı çətin olardı".

Qeyd edək ki, "Müqayisəli türk ləhcələri lüğəti" kitabını hazırlayan alimlər TÜRKSOY tərəfindən simpoziuma dəvət olunublar. Kitabın Azərbaycan bölməsi mərhum alim Ələddin Əliyev tərəfindən hazırlanıb.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli iyulun 13-də keçirilən paneldə çıxış edib.

"Türkcənin Anadoluda yazı dilinə çevrilməsi" beynəlxalq simpoziumu iyulun 14-də başa çatacaq.

**Mehparə SULTANOVA**
**Ankara**

# Başqırdıstanda VI Dünya Folkloriadası

## Azərbaycan da təmsil olunub




İyulun 3-dən 10-dək Rusiya Federasiyasının Başqırdıstan Respublikasında VI Dünya Folkloriadası keçirilib. Dünyanın 37 ölkəsinin təmsil olunduğu folkloriadada Azərbaycandan "Ritm" rəqs qrupu iştirak edib.

Folklor Festivalları və Xalq Sənətkarlığı Təşkilatları Beynəlxalq Şurasının (CİOFF) himayəsi altında keçirilən Dünya Folkloriadası dörd ildən bir təşkil edilir. Folkloriada Başqırdıstanda 2020-ci ildə keçirilməli idi, lakin COVİD-19 səbəbindən təxirə salınmışdı.

Folklor festivalı pandemiya ilə bağlı ciddi ehtiyat tədbirləri alınmaqla gerçəkləşib. COVİD-19-a yoluxma aşkarlanan iki heyət – Özbəkistan kollektivi və Moskvanın "Qjel" rəqs qrupu folkloriadadan kənarlaşdırılıb.

Folkloriadanın konsert proqramları Başqırdıstanın paytaxtı Ufada və 22 bələdiyyədə keçirilib. "Ufa-Arena"da təşkil olunan təntənəli açılış mərasimində 37 ölkədən iştirakçıların milli geyimdə möhtəşəm keçidi olub.

Azərbaycanı təmsil edən "Ritm" rəqs qrupu bir neçə şəhərdə çıxış edib. Yerli sakinlər kollektivi çox səmimi qarşılayıb, təqdim edilən proqramdan zövq alıblar. Azərbaycan diasporunun çoxsaylı nümayəndələri də onları dəstəkləməyə gəliblər.

Başqırdıstanda VI Dünya Folkloriadası dünya rekorduna da imza atıb. İlk dəfə olaraq 37 ölkədən 71 millətin təmsilçiləri yallı gediblər. Bu günlərdə Ufada olan əcnəbi turistlər də onlara qoşulublar. Yallıda ümumilikdə 2700 nəfər iştirak edib.

# ABŞ-ın Xəzər Siyasət Mərkəzinin nümayəndə heyəti BTA-nı ziyarət edib

ABŞ-ın Vaşinqton şəhərində yerləşən Xəzər Siyasət Mərkəzinin (Caspian Policy Center – CPC) nümayəndə heyəti Nur-Sultan şəhərində Beynəlxalq Türk Akademiyasını (BTA) ziyarət edib.

Akademiyanın mətbuat xidmətindən bildiriblər ki, CPC-nin icraçı direktoru Əfqan Niftinin rəhbərlik etdiyi və CPC İdarə Heyətinin üzvü, ABŞ-ın Qazaxıstandakı sabiq səfiri Riçard Hoqland, proqram köməkçisi Ceremi Kohen və baş proqram meneceri Akbota Karibayevanın daxil olduğu nümayəndə heyəti ilə geniş fikir mübadiləsi aparılıb.



BTA-nın prezidenti Darxan Kıdırəli təşkilatın məqsədi, fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verib.

ABŞ-da türkologiya sahəsinin yüksək səviyyədə inkişaf etdiyini vurğulayan D.Kıdırəli qurumun bu ölkənin zəngin intellektual potensialından faydalanmaq üçün Birləşmiş Ştatlardakı təşkilatlarla əməkdaşlığa əhəmiyyət verdiyini söyləyib.

Əfqan Nifti BTA ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb. Nümayəndə heyətinin üzvü Riçard Hoqland isə uzun müddət Qazaxıstanda və Azərbaycanda çalışdığını, regiondakı prosesləri yaxından izlədiyini qeyd edib. Təcrübəli diplomat bölgənin beynəlxalq siyasi arenada əhəmiyyətinin artdığına diqqət çəkib.

Sonda Darxan Kıdırəli qonaqlara BTA tərəfindən nəşr olunan kitabları hədiyyə edib.

# "Ayının başı" 12,2 milyon dollara satılıb

## Ölçüsü cəmi 49 kvadratsantimetrdir



Leonardo da Vinçinin çəkdiyi "Ayının başı" eskizi "Christie's" hərrac evində 12,2 milyon dollara satılıb.

Hərrac evindən verilən məlumatda qeyd olunub ki, 7x7 sm ölçüdə kiçik eskiz çəhrayı rəngli kağız üzərində sadə karandaşla işlənib.

Mütəxəssislər hesab edirlər ki, eskiz rəssamın Florensiyadan Milana köçməsindən qabaq, təxminən 1480-ci ilin əvvəllərində çəkilib.

Qeyd edək ki, bu vaxta qədər Leonardo da Vinçinin hər hansı bir ayını öz əsərlərində təsvir etməsi müəyyən olunmayıb. Güman olunur ki, rəssam "Ayının başı" və "İtin pəncələri" eskizlərini Çeçiliya Qalleraninin portretində bir sincabı təsvir etmək üçün istifadə edib.

# Norveçdə Azərbaycanla əlaqələrə həsr edilmiş sərgi açılıb

Dünya şöhrətli alim və səyyah Tur Heyerdalın doğulduğu Norveçin Larvik şəhərinin "Bölgen" mədəniyyət mərkəzində Azərbaycan-Norveç əlaqələrinə həsr edilən sərgi açılıb.



"Tur Heyerdalın Azərbaycana aparan addımları ilə milli mirasımızın mənşəyini kəşf et" adlı sərgi Norveçdə fəaliyyət göstərən "CAN" təşkilatının təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsi, Tur Heyerdal İnstitutu, "Vestfold" və "The Viking Planet" muzeylərinin dəstəyi ilə reallaşıb.

Açılış mərasimində Larvik şəhər bələdiyyəsi sədrinin müavini Rune Höiset çıxış edərək layihəni yüksək qiymətləndirib, şəhərin 350 illik yubileyində Tur Heyerdalın xatirəsini yad edən və səyyahın Azərbaycanın ümummilli lideri Heydər Əliyevlə dostluq münasibətlərini əks etdirən sərginin əhəmiyyətini vurğulayıb.

Türkiyənin Norveçdəki Səfirliyinin birinci müşaviri Barbaros Tuna Erdem çıxışında səfir Fazlı Çormanın təbriklərini çatdırıb, "CAN" təşkilatının sədri Şervin Nəcəfpuru uğurlu təşəbbüs münasibətilə təbrik edib.

Şervin Nəcəfpur layihə barədə qonaqlara geniş məlumat verib. Sərginin yerli muzeylərdə nümayiş olunacağını bildirən Şervin Nəcəfpur Azərbaycan xalçaları və milli geyimlərinin də sərgiyə əlavə olunacağını diqqətə çatdırıb.

Tur Heyerdal İnstitutunun direktoru Beate Björge məşhur səyyahın ölkəmizə bağlılığı barədə danışıb, sərgini Azərbaycanda da nümayiş etdirmək istədiklərini deyib.

Qeyd edək ki, sərgi iyulun 31-dək davam edəcək. Oktyabrda isə Tur Heyerdalın Ev-Muzeyində nümayiş olunacaq.

# "Xalça sənəti – mənaların təkamülü"

Xəbər verdiyimiz kimi, iyulun 7-də Tatarıstan Respublikasının (Rusiya Federasiyası) "Kazan Kremli" Muzey-Qoruğunda Azərbaycan Milli Xalça Muzeyinin "Xalça sənəti – mənaların təkamülü" adlı sərgisi açılıb.



Sərginin ilk günündə Azərbaycan Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikovanın mühazirəsi və kurator ekskursiyası təşkil olunub. Direktor ilk öncə dünyada ilk xalça muzeyinin ölkəmizdə, Bakıda yaranması, muzeyin fəaliyyət istiqamətləri, kolleksiyaları haqqında məlumat verib.

O, sərginin konsepsiyası, eksponatların seçim prinsipləri barədə fikirlərini bölüşüb, nümayiş olunan XIX əsrin sonu – XX əsrin əvvəllərində toxunmuş ecazkar klassik xalça nümunələrinin tarixi, ornamentlərin semantikası, rəng tərtibatı və texniki xüsusiyyətlərindən danışıb. Azərbaycan xalçaçılıq sənətinin davamlı olaraq qədim ənənələri itirmədən inkişaf etdirildiyi, həmçinin yeni yanaşmalarla zənginləşdirildiyi vurğulanıb.

Şirin Məlikova müasir rəssamlardan Çingiz Babayevin də məhz qədim sənətkarlığı yeni yollarla inkişaf etdirən əsərlər yaratdığını diqqətə çatdırıb. Onun yaratdığı sənət nümunələrinin fəlsəfi mənalarından bəhs olunub.

Qeyd edək ki, 10-11 iyul tarixlərində sərgi çərçivəsində ailə proqramı da təşkil edilib. Milli Xalça Muzeyinin Kazanda "Xalça sənəti – mənaların təkamülü" sərgisi sentyabrın 5-dək ziyarətçilər üçün açıq olacaq.

# Nizaminin "Leyli və Məcnun"u Kiyevdə təqdim olunub

Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin dəstəyi ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması Ukraynada nəşr olunub. Kitabın Ukrayna Milli Ədəbiyyat Muzeyində təqdimat mərasimi keçirilib.



Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, tədbirdə Ukraynanın elm və ədəbiyyat xadimləri iştirak ediblər. Ukrayna Şərqşünaslıq İnstitutunun direktoru Aleksandr Boqomolov, tanınmış şərqşünas Qriqori Xalimonenko, Ukrayna Milli Elmlər Akademiyası Ukrayna Dili İnstitutunun direktoru, professor Pavel Qriçenko, dramaturq, professor Larisa Xorelets, Ukrayna Tərcüməçilər Birliyinin rəhbəri Sergey Borşevski, "Yaroslavov Val" nəşriyyatının direktoru, şair Svetlana Koronenko, Kiyev-Moqilyanski Akademiyası Milli Universitetinin professoru Fərhad Turanlı, Ukrayna Kitab İnstitutu Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Darina Stepanyuk çıxış edərək dahi şairin yaradıcılığı haqqında fikirlərini bölüşüblər.

İlahi sevginin tərənnümünə, ədalətli cəmiyyət arzularının gerçəkləşməsinə xidmət edən böyük poeziyanın bu gün də öz aktuallığını qoruyub saxladığı, özünə əbədi, ümumbəşəri maraq və sevgi qazandırdığı bildirilib.

Dövlət Tərcümə Mərkəzi elm, təhsil və mədəniyyət idarəsinin rəhbəri, yazıçı-tərcüməçi Etimad Başkeçid şairin 880 illik yubileyi münasibətilə 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunduğunu qeyd edib, dahi şairin əsərlərinin dünya xalqları tərəfindən sevilərək öyrənildiyini bildirib.

Tanınmış şərqşünas alim, nizamişünas, professor Qriqori Xalimonenko Nizami irsinin Ukraynada tədqiqindən, Azərbaycan klassik ədəbiyyatının dünya poeziyasına təsirindən söz açıb.

Layihənin həyata keçirilməsində göstərdikləri dəstəyə görə Ukrayna Milli Ədəbiyyat Muzeyinin direktoru Qalina Sorokeyə, "Yaroslavov Val" nəşriyyatının bir qrup əməkdaşına, layihənin koordinatoru Marina Qonçaruka və kitabın redaktoru Qriqori Quseynova Dövlət Tərcümə Mərkəzinin diplomları təqdim olunub.

Qeyd edək ki, "Yaroslavov Val" nəşriyyatında işıq üzü görmüş kitabı Ukrayna dilinə şair Leonid Pervomayski tərcümə edib. Kitabın ön sözündə görkəmli şərqşünası alim Aqafangel Krımskinin Nizami haqqında məqaləsi verilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1274
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.